# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

16 yanvar 2026-cı il, cümə
№ 009 (7076)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Qeyri-neft ixracına xüsusi töhfə




## Azərbaycanda Qərb Sənaye Parkı yaradılır

Bax səh. 2

# Milli mədəniyyətimizə yeni strateji baxış

Bax səh. 3

## Tarixi rekord - 10 min meqavat həcmində enerji gücü!

Bu günlərdə Əbu-Dabidə Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin (IRENA) 16-cı Assambleyası keçirilib. İki gün davam edən Assambleyada Azərbaycan da təmsil olunub.

Ölkəmizin belə bir mötəbər tədbirə dəvət alması isə heç də təsadüfi deyil. Azərbaycan dünyada enerji transformasiyası çağırışlarına həssas yanaşan ölkələr sırasında yer alır. Respublikamız davamlı olaraq öz imkanlarını təqdim etməklə enerji keçidi təşəbbüslərinə dəstək verir ki, bu da dünyada təqdirlə qarşılanır.

Hazırda dünyanın əsas çağırışlarından biri enerji keçidi ilə bağlıdır. Mövcud geosiyasi gərginliklər fonunda Avropa İttifaqı (Aİ) "REPowerEU" adlandırılan xilas planını hazırlayıb ki, burada da enerjiyə tələbatın qarşılanması, bütövlükdə, yeni şəraitdə iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün bərpaolunan mənbələrdən alınan enerjinin həcmlərinin artırılması...

Bax səh. 4

## Qarabağa həyat qayıdır...

Böyük Qələbəmizin əsas memarı olan Prezident İlham Əliyev postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərin bərpasına və yenidən qurulmasına böyük həssaslıqla yanaşır. Təsadüfi deyildir ki, dövlətimizin başçısı tez-tez bəhs olunan ərazilərə səfərlər edərək burada reallaşdırılan layihələrin icrası ilə şəxsən maraqlanır, geri qayıdan keçmiş qaçqın və məcburi köçkünlərlə görüşərək onların arzu və istəklərini dinləyir.

Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə bu günlərdə baş tutan növbəti səfəri çərçivəsində Ağdərə rayonunun ayrı-ayrı kəndlərində görülən işlərlə tanış olub, həmçinin Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşərək onlarla səmimi söhbətlərə qatılıb. "Son iki il ərzində, - antiterror əməliyyatından sonra, - 2023-cü ildən bu yana bütün bu bölgələrdə - Ağdərədə, Xocalıda, Xankəndidə, Xocavənddə həyat bərpa edilir. Beş il bundan əvvəl isə vaxtilə işğal altında olmuş digər ərazilərə köçkünlər...

Bax səh. 2

## Qarşılıqlı etimad əsasında

Azərbaycan və İsrail mövcud potensiallarından səmərəli istifadə etməklə aqrar sahədə tərəfdaşlığı daha da dərinləşdirmək, qarşılıqlı təcrübə mübadilələrini artırmaq niyyətindədir. Hər iki ölkə "Kənd təsərrüfatı sahəsində əməkdaşlıq üzrə Niyyət Bəyannaməsi" və Kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair yol xəritəsi"nin hədəflərinə uyğun olaraq ortaq layihələrin həyata keçirilməsini təmin etmək üçün birgə işçi qrupu səviyyəsində fəallığı artırmaqdadır. İsraildə səfərdə olan kənd təsərrüfatı naziri Məcnun Məmmədovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti ilə qarşı tərəf arasında keçirilən görüşdə bu sahədə mövcud vəziyyət və əməkdaşlığın yeni istiqamətlərinə diqqət çəkilib. Bildirilib ki, səfər iki ölkə arasında aqrar sahədə əməkdaşlığın yeni mərhələyə keçməsi və elmi-praktik əlaqələrin inkişafı üçün mühüm addım hesab olunur.

Səfər çərçivəsində nümayəndə heyəti İsrailin kənd təsərrüfatı sahəsində aparıcı tədqiqat və araşdırma mərkəzlərinə baş çəkib...

Bax səh. 5

## TRIPP bütün regionda rifahı və təhlükəsizliyi artıracaq

Məlum olduğu kimi, ABŞ Dövlət Departamenti "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun" (TRIPP) icra çərçivəsinin qəbul edildiyini açıqlayıb. Qurumun açıqlamasında bildirilir ki, bu sənəd Cənubi Qafqazda davamlı sülhün təmin edilməsi üçün 8 avqust 2025-ci ildə Ağ Evdə qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsi istiqamətində atılan son addımdır. Çərçivə Ermənistan ərazisində maneəsiz, multimodal tranzit əlaqəsi yaratmaq məqsədi daşıyan TRIPP-in fəaliyyətə başlaması üçün konkret bir yol göstərir.

Sənəddə vurğulanır ki, Azərbaycanın əsas hissəsini və Naxçıvan Muxtar Respublikasını birləşdirən TRIPP Trans-Xəzər Ticarət Marşrutunda vacib bir əlaqə yaradır. "Prezident Trampın ev sahibliyi etdiyi 8 avqust 2025-ci il tarixində keçirilən tarixi Sülh Zirvəsində təsdiq edilmiş prinsipləri əks etdirən TRIPP icra çərçivəsi TRIPP-in ümumi uğuru üçün suverenliyin, ərazi...

Bax səh. 4

# Beynəlxalq ictimaiyyət narahatdır



Bax səh. 6

# Qeyri-neft ixracına xüsusi töhfə

## Azərbaycanda Qərb Sənaye Parkı yaradılır








Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən, ölkəmizdə Qərb Sənaye Parkı yaradılacaq. Park Gəncə şəhərinin və Şəmkir rayonunun ərazisində yerləşəcək. Qərb Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədilə istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazi kimi müəyyənləşib. Parkın fəaliyyətinin təşkili, onun idarə edilməsi və inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinə tapşırılıb.

Qərb Sənaye Parkının fəaliyyəti üçün Gəncə şəhəri Yevlax şosesində yerləşən, Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş "Azəralüminium" MMC-nin istifadəsindəki dövlət mülkiyyətində olan sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına aid 81.8 hektar torpaq sahəsi icarə hüququ ilə agentliyin daimi istifadəsinə veriləcək. Eləcə də Şəmkir rayonunun Könüllü kəndi ərazisində yerləşən, bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı 100 hektar torpaq sahəsinin təyinatının dəyişdirilərək sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına keçirilməsi nəzərdə tutulur.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"yə və digər normativ hüquqi aktlara uyğun olaraq Qərb Sənaye Parkının fəaliyyətinə cəlb olunması ilə bağlı zəruri tədbirlər görülməsini təmin etmək,bu fərmanda nəzərdə tutulmuş tədbirlərin icrası barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək, bu fərmandan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Qərb Sənaye Parkının fəaliyyətinin təşkili, ərazisinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması üçün layihələndirmə işlərinin təmin edilməsi məqsədilə 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan İqtisadiyyat Nazirliyinə ilkin olaraq 500 yüz min manat ayrılıb.

İqtisadiyyat Nazirliyinə Qərb Sənaye Parkında istehsal və emal olunan sənaye məhsulları, habelə göstərilən xidmətlər üzrə prioritet istiqamətləri iki ay müddətində müəyyən edib Prezidentə məlumat vermək, Qərb Sənaye Parkının ərazisində xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlər göstərilməsini təmin etmək məqsədilə agentliyə kömək etmək, fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görmək tapşırılıb.

**Qərb Sənaye Parkı ölkə iqtisadiyyatı üçün hansı əhəmiyyət kəsb edə bilər?**

Millət vəkili Vüqar Bayramov bildirib ki, sənaye parkları yerli sahibkarlar və bir sıra hallarda xarici investorlar üçün güzəştlər anlamına gəlir. "Sənaye parkları artıq işğaldan azad edilmiş ərazilərimizdə də formalaşır. Ağdam və Cəbrayılda sənaye parklarının yaradılması, istehsalın təşkili həyata keçirilir. Ağdamda yaradılan sənaye parkı həm də Azərbaycanda qeyri-neft ixracatına töhfə verir, burada istehsal olunan məhsulların xarici ölkələrə ixracı həyata keçirilir. Bu baxımdan Azərbaycan sənaye məhəllələri və sənaye parkları praktikasından istifadə edir. Bu, sahibkarlar üçün qeyri-neft sektoruna sərmayənin cəlb edilməsi baxımından yeni imkanlar yaradır, həm də sahibkarların dövlət tərəfindən daha yaxın dəstəklənməsidir. Çünki sahibkarlar sənaye parkları və sənaye məhəllələrində kifayət qədər ciddi vergi güzəştlərindən istifadə edirlər. Həmin ərazilərdə infrastrukturun formalaşması, bu infrastrukturdan istifadə imkanları olur ki, bu da sahibkarlar üçün sərmayənin cəlb edilməsinin təşviqidir. O baxımdan Qərb Sənaye Parkının yaradılması da bu istiqamətdə siyasətin daha da genişləndirilməsinə xidmət edəcək".

Dövlətin sahibkarları fərqli alət və vasitələr ilə dəstəklədiyini deyən Vüqar Bayramov Qərb Sənaye Parkının xarici investorlar üçün maraqlı olacağını sözlərinə əlavə edib: "Bu, yerli sahibkarlar üçün birmənalı maraqlıdır, çünki onlar vergi güzəştlərindən istifadə edəcək, istehsal imkanlarını genişləndirəcəklər ki, bu da daha az xərclə daha çox məhsul istehsalı deməkdir. Ümumiyyətlə, sənaye parkları sənaye sektorunda istehsalın təşkilini həyata keçirir. Əvvəlki sənaye parkları və sənaye məhəllələrində iqtisadiyyatın fərqli sektorları üzrə məhsul istehsalının həyata keçirilməsini müşahidə etmişik. Bu praktika yeni yaradılan sənaye parkında da davam etdiriləcək. Burada xüsusən də daha çox tələb olunan sənaye məhsullarının istehsalının təşkil olunacağı gözlənilir. Sənaye parkının formalaşması, investisiyanın cəlb edilməsi qeyri-neft sektorunun inkişafını stimullaşdırır. Orada istehsal edilən məhsullar qeyri-neft məhsullarıdır. Bu, qeyri-neft məhsullarının istehsalının artırılması ilə yanaşı, həm də ixrac imkanlarının genişlədirilməsi deməkdir".

# Qarabağa həyat qayıdır...

*Mübariz FEYİZLİ*

Böyük Qələbəmizin əsas memarı olan Prezident İlham Əliyev postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərin bərpasına və yenidən qurulmasına böyük həssaslıqla yanaşır. Təsadüfi deyildir ki, dövlətimizin başçısı tez-tez bəhs olunan ərazilərə səfərlər edərək burada reallaşdırılan layihələrin icrası ilə şəxsən maraqlanır, geri qayıdan keçmiş qaçqın və məcburi köçkünlərlə görüşərək onların arzu və istəklərini dinləyir.

Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə bu günlərdə baş tutan növbəti səfəri çərçivəsində Ağdərə rayonunun ayrı-ayrı kəndlərində görülən işlərlə tanış olub, həmçinin Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşərək onlarla səmimi söhbətlərə qatılıb. "Son iki il ərzində, - antiterror əməliyyatından sonra, - 2023-cü ildən bu yana bütün bu bölgələrdə - Ağdərədə, Xocalıda, Xankəndidə, Xocavənddə həyat bərpa edilir. Beş il bundan əvvəl isə vaxtilə işğal altında olmuş digər ərazilərə köçkünlər qayıtmağa başlayıblar. Bu gün artıq 73 min insan - həm keçmiş köçkün, həm də ki, köçkün olmayan, amma azad edilmiş ərazilərdə işləyənlər, çalışanlar, oxuyanlar yerləşiblər və hər ay Qarabağa qayıdan vətəndaşların sayı artır. Burada şərait yaradılıb - işıq, su, qaz, yollar, iş yerləri", - deyə dövlətimizin başçısı sakinlərlə görüşdə vurğulayıb.

Həyata keçirilən genişmiqyaslı layihələr regionun bütün inkişaf mənzərəsini köklü şəkildə dəyişib. Beş il ərzində dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilər üzrə 569 tədbirdə iştirak edib, müxtəlif təyinatlı 177 layihənin təməlini qoyub, 167 obyektin və infrastruktur layihəsinin açılışını edib. Qarabağda və Şərqi Zəngəzurda aidiyyəti dövlət qurumları və yerli şirkətlər tərəfindən aparılan minatəmizləmə fəaliyyəti nəticəsində 240 min hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib, 3 beynəlxalq hava limanı istifadəyə verilib, tikintisi nəzərdə tutulmuş ümumi uzunluğu 3501,6 kilometr olan avtomobil yolları üzrə 60 layihədən 16-sı tam, 1-i isə qismən icra edilib. Avtomobil yolları üzərində 28 tuneldə qazma işləri, 392 körpü və 9 viadukun tikintisi artıq başa çatıb. Dəmir yollarının tikintisi ilə bağlı 49 körpünün inşası planlaşdırılıb, onlardan 42 körpünün inşası başa çatıb, 3 körpü istismara verilib. Qarabağda və Şərqi Zəngəzurda 38 su elektrik stansiyası, 4 su anbarı, 14 elektrik yarımstansiyası istismara buraxılıb, 6 magistral qaz xətti, 1000 kilometrdən artıq yüksək gərginlikli elektrik verilişi xətləri çəkilib, 8 şəhərə, 20 kəndə və 1 qəsəbəyə qazın verilməsi təmin olunub. Bölgədə 1 xəstəxana, 19 ümumi, 7 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Bundan əlavə, Xankəndi şəhərində Qarabağ Universiteti fəaliyyətə başlayıb. Bir qədər bundan əvvəl dövlətimizin başçısının iştirakı ilə Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni inşa olunmuş binasının açılışı baş tutub, həmçinin mühəndislik fakültəsinin binasının təməli qoyulub. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərin iqtisadi dirçəlişində əsas rol oynayan Ağdam və Cəbrayıl rayonundakı "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları salınıb.









**Regionun inkişaf mənzərəsi tamam dəyişir**

Yeni reallıqlarla səciyyələnən postmüharibə dövründə hədəflərimiz dəyişib. İndiki mərhələdə 44 günlük müharibədə işğaldan azad edilən ərazilərə Böyük Qayıdışın təmin edilməsi Azərbaycanın gündəliyində duran əsas məsələlər sırasında yer alır. Prezident İlham Əliyevin 22 iyul 2022-ci il tarixində imzaladığı müvafiq Sərəncamla təsdiqlənən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda Böyük Qayıdış üzrə strateji çərçivə müəyyənləşdirilib.

Eyni zamanda, Azərbaycan Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli sərəncamı ilə "2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın 9 ay müddətində hazırlanması üçün Nazirlər Kabinetinə tapşırıq verilib və bu istiqamətdə işlər uğurla davam etdirilir.

"Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası uğurla tamamlanmaq üzrədir. Azad olunmuş ərazilərin bərpasına 2025-ci ildə daxil olmaqla 22,5 milyard manat vəsait yönəldilib, 2026-cı ildə isə bu məqsədlə 3,5 milyard manat vəsait ayrılması nəzərdə tutulub.

**Kəndlərin yeni növrağı**

Postmüharibə dövründə otuz il ərzində işğal altında qalmış yaşayış məntəqələrimizin yeni növrağı başlayıb, desək, yanılmarıq. Prezident İlham Əliyev səfər çərçivəsində Ağdərə rayonunun Çapar kəndində görülmüş işlərlə tanış olub. Qeyd edək ki, Çapar Ağdərə rayonunun İmarət Qərvənd kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsinin cənub-şərq yamacında yerləşir. Burada qala və məbəd memarlıq abidələri var. Çapar kəndi Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdikləri antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Çaparda mövcud olan fərdi evlərin sayı 104-dür. Onlardan da 41-i yararsız, 63-ü isə qismən yararlıdır. Evlərdən 40-ı artıq istismara hazırdır. İl ərzində daha 23 ev bərpa ediləcək. İlkin olaraq kəndə 26 ailə (96 nəfər) qayıdıb.

Burada sosial məsələlərin həlli ilə bağlı bir çox iş görülüb. Belə ki, 3 ədəd mövcud transformator və elektrik xətti bərpa edilib, yeni elektrik, qaz və rabitə xətləri çəkilib, su şəbəkəsi yaradılıb, su anbarları bərpa olunub. Uzunluğu 6 kilometrə yaxın olan kənddaxili yollar yenidən qurulub. Kənddə yeni salınmış park da sakinlərin istifadəsinə veriləcək.

Səfər çərçivəsində Prezident İlham Əliyevin baş çəkdiyi yaşayış məntəqələrindən biri də Heyvalı kəndi olub. Heyvalı kəndi Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, Qarabağ silsiləsinin ətəyində yerləşir. İşğaldan əvvəl yerli əhalinin əsas məşğuliyyətini taxılçılıq, tütünçülük və heyvandarlıq təşkil edib, kənddə məktəb, klub və poçt kimi sosial obyektlər fəaliyyət göstərib. Kənd 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Qeyd edək ki, Heyvalıda mövcud olan 126 fərdi evdən 45-i artıq tam bərpa edilib və istismara hazırdır. İl ərzində daha 50 evin bərpası nəzərdə tutulur. Artıq doğma yurduna dönən 19 ailənin (74 nəfər) məskunlaşması üçün bütün zəruri şərait yaradılıb.

Kəndin yenidən qurulması çərçivəsində sosial infrastrukturun bərpası istiqamətində genişmiqyaslı işlər görülüb. Belə ki, 2 mövcud transformator, enerji və qaz xətləri bərpa olunub, yeni rabitə xətləri çəkilib. Sakinlərin içməli su ilə təmin olunması üçün 60 kubmetrlik çən quraşdırılıb və su şəbəkəsinin inşası üzrə işlərə başlanılıb. Bundan əlavə, 4,5 kilometr uzunluğunda kənddaxili yollar əsaslı şəkildə bərpa olunub və sakinlərin asudə vaxtı üçün yeni istirahət parkı salınıb.

Dövlətimizin başçısı həmçinin Çıldıran kəndində görülmüş işlərlə tanış olub.

Çıldıran Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, dağətəyi ərazidə yerləşir. İşğaldan əvvəl yerli əhalinin əsas məşğuliyyətini heyvandarlıq və bitkiçilik təşkil edib. Kənddə məktəb, mədəniyyət evi, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Kəndin ərazisi tarixi abidələrlə zəngindir. Burada XII əsrə aid "Alban məbədi" və XIII əsrə aid "Qırmızı məbəd" memarlıq abidələri yerləşir. Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ilin sentyabrında həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində kəndin işğalına son qoyulub.

Kənddə 177 fərdi ev mövcuddur ki, onlardan da 69-u yararsız, 108-i isə qismən yararlıdır. İndiyədək 28 ev istismara hazır vəziyyətə gətirilib. Bu il daha 30 evin bərpası planlaşdırılır. Hazırda ilkin olaraq kəndə 13 ailə (48 nəfər) qayıdıb.

Çıldıran kəndində 2 mövcud transformator, elektrik və qaz xətləri bərpa edilib, yeni elektrik, qaz və rabitə xətləri çəkilib. Bundan başqa, su nasosu istifadəyə verilib, ümumi həcmi 190 kubmetr olan su anbarları təmizlənib və subartezian quyusu təmir olunub, 8,4 kilometr uzunluğunda kənddaxili yollar bərpa edilib, park salınıb.

Ağdərə rayonunun Aşağı Oratağ kəndində də nəzərdə tutulan bərpa işləri uğurla həyata keçirilir. Dövlətimizin başçısı bu yaşayış məntəqəsində də görülmüş işlərlə tanış olub.

Kənd Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, dağətəyi ərazidə yerləşir. İşğaldan əvvəl kəndin əhalisi əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq və tütünçülüklə məşğul olub, burada məktəb, klub, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Aşağı Oratağ kəndi Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad olunub.

Kənddə ümumilikdə 308 fərdi ev var. Onlardan 148-i yararsız, 160-ı isə qismən yararlıdır. Hazırda 100 ev görülmüş bərpa işlərindən sonra istismara hazırdır. İl ərzində daha 60 ev əsaslı təmir və bərpa olunacaq. Kəndə ilkin olaraq 31 ailə (119 nəfər) qayıdıb.

Burada sosial infrastrukturla bağlı bir sıra işlər görülüb. Belə ki, 2 ədəd transformator və qaz xətti bərpa olunub, yeni elektrik, qaz və rabitə xətləri çəkilib, su nasosu istifadəyə verilib, ümumi həcmi 560 kubmetr olan su anbarları təmizlənib, subartezian quyusu təmir edilib. Uzunluğu 7 kilometrə yaxın kənddaxili yollar bərpa olunub. Sakinlərin istirahəti üçün park salınıb, futbol meydançası yaradılıb.

# Milli mədəniyyətimizə yeni strateji baxış



Nümunəvi inkişaf modelinə malik olan Azərbaycanın bütün istiqamətlərdə dövlət siyasəti mövcud reallıqlara, konseptual yanaşmalara və meydana çıxan çağırışlara əsaslanır. Ölkəmizin böyük uğurlarını şərtləndirən bu siyasətin davamı olaraq daha bir uzunmüddətli sənəd - "Azərbaycan Mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası təsdiqlənib. Prezident İlham Əliyev bununla bağlı 14 yanvar 2026-cı il tarixində müvafiq sərəncam imzalayıb.

Sərəncama əsasən, Mədəniyyət Nazirliyi Konsepsiyada nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini həyata keçirəcək, həmin tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Prezidentinə məlumat verəcək.

Konsepsiyada nəzərdə tutulan tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Mədəniyyət Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

**Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə əsaslanan mükəmməl sənəd**

Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsi xalqımızı birləşdirən, ölkəmizdə sarsılmaz həmrəylik mühiti formalaşdıran mükəmməl ideologiyadır. Azərbaycançılıq ideologiyası harada yaşamasından asılı olmayaraq bütün dünya azərbaycanlılarında ana Vətənə böyük sevgi aşılayır. Burada dil, mədəniyyət bir mənəvi körpüdür. Məhz bu körpü vasitəsilə biz bir-birimizə bağlanırıq. Mədəniyyət, incəsənət, ədəbiyyat, ana dili bizim milli pasportumuzdur. Zəngin ənənələrimiz, milli-mənəvi dəyərlərimiz, məişətimiz, hayata baxışımız məhz mədəniyyət, incəsənət və ədəbiyyat nümunələri ilə nəsildən-nəslə ötürülərək yaşadılır və bir toplum, xalq olaraq bizim identikliyimizi təmin edir. Keçmiş sovet hakimiyyəti illərində respublikaya rəhbərlik edən müdrik siyasətçi Heydər Əliyev Azərbaycanın gələcək müstəqilliyini düşünərək mədəniyyətə böyük qayğı göstərməklə, Azərbaycan dilinə dövət dili status verilməsinə nail olmaqla insanların özünüdərk hissini gücləndirir, xalqı azadığa qovuşduracaq milli ideya formalaşdırırdı. Onun mədəniyyət, incəsənət və ədəbiyyat vasitəsilə səpdiyi toxumlar şərait yarandıqda sağlam cücərtilər verdi. Biz XX yüzillikdə ikinci dəfə müstəqilliyə qovuşmağın sevincini və qürurunu yaşadıq.



Hazırkı mərhələdə zamanında böyük siyasətçi Heydər Əliyevin əsasını qoyduğu milli mədəniyyətə qayğı siyasətini Prezident İlham Əliyev eyni ardıcıllıqla davam etdirir. Azərbaycanın mədəniyyət siyasəti dövlət siyasətinin tərkib hissəsi olmaqla, mədəni həyatın təmin edilməsi üçün əlverişli mühit yaradılmasına, milli-mənəvi dəyərlərin qorunmasına, mədəniyyətin tərbiyə potensialına və şəxsiyyətin formalaşması prosesində mədəniyyətdən istifadəyə əsaslanan mühüm bir istiqamətdir. Sənəddə vurğulandığı kimi, 2003-2025-ci illər ərzində Azərbaycanda mədəniyyət sahəsində əhəmiyyətli işlər görülüb. O cümlədən milli mədəniyyətimizin inkişafı məqsədilə dövlət başçısının 2014-cü il 14 fevral tarixli müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" uğurla icra olunub. 2003-2024-cü illərdə Azərbaycanda mədəniyyət sahəsində 14 qlobal və 100-dən artıq regional tədbir keçirilib. Mədəniyyətlərarası dialoqu genişləndirmək məqsədilə "Bakı Prosesi" qlobal mədəni təşəbbüsü, ümumdünya mədəniyyətlərarası dialoq forumlarının da daxil olduğu həmin tədbirlər nəticəsində Azərbaycan Respublikası beynəlxalq müstəvidə mədəni-siyasi nüfuz sahibinə çevrilib. Beynəlxalq əməkdaşlığın inkişafı məqsədilə 6 xarici ölkədə (Almaniya, Avstriya, Fransa, İtaliya, Özbəkistan, Türkiyə) Azərbaycan mədəniyyət mərkəzi yaradılıb. Müxtəlif illərdə Azərbaycanın 3 şəhəri İslam Dünyasının Mədəniyyət Paytaxtı (Bakı - 2009-cu il üçün, Naxçıvan - 2018-ci il üçün, Şuşa - 2024-cü il üçün), 2 şəhəri Türk Dünyasının Mədəniyyət Paytaxtı (Şəki - 2016-cı il üçün, Şuşa - 2023-cü il üçün) elan edilib. Həmçinin, dövlətin mədəniyyət siyasətinə ictimai dəstək olaraq Heydər Əliyev Fondu tərəfindən mədəniyyət sahəsində milli və beynəlxalq proqram və layihələr (Milli Muğam Müsabiqəsi, "Muğam aləmi" Beynəlxalq Musiqi Festivalı, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı və s.) həyata keçirilib, insanların yaradıcı potensialının aşkara çıxarılmasına, qabiliyyətlərinin inkişaf etdirilməsinə şərait yaradılıb.

Dövlət başçısının sərəncamı ilə "Azərbaycan Mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasının təsdiqlənməsi ölkəmizdə mədəniyyətə davamlı dövlət qayğısının təmin edilməsinin daha bir sübutudur. Belə bir konsepsiyanın indi qəbul edilməsi təsadüfi deyil. Qloballaşma şəraitində yaşayırıq. İndiki dövrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ölkələr, xalqlar arasında inteqrasiyanı intensivləşdirib. Bu, bir tərəfdənn yaxşı hal olsa da, milli mədəniyyətlər və dillər üçün təhdidləri də artıraraq yeni çağırışlar yaradır. Azərbaycan mədəniyyətinin dövrün regional və qlobal çağırışları müstəvisində intibahı mühüm əhəmiyyət daşıyır. Biz qloballaşma şəraitində həm milli mədəniyyətimizi qorumalıyıq, həm də onun zənginləşməsi qayğısına qalmalıyıq. Ölkənin ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsi əsasında yeni milli ideologiyanın və buna əsaslanan yeni mədəniyyət siyasətinin formalaşdırılmasını şərtləndirir. Bu baxımdan "Azərbaycan mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası qlobal və ölkədaxili çağırışlar nəzərə alınmaqla, Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin yaradılması, inkişafı və 2040-cı ilədək digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrinin genişləndirilməsi üçün dövlət mədəniyyət siyasətinin istiqamətlərini müəyyən edən və mədəniyyət sahəsi ilə bağlı fəaliyyətə vahid, sistemli və dayanıqlı yanaşmanı təmin edən strateji planlaşdırma sənədidir. Konsepsiya milli mədəniyyətə yeni strateji baxışı şərtləndirir.





**Konsepsiya üzrə 6 Dövlət Proqramı hazırlanacaq**

İndiyədək ölkəmizdə dövlət səviyyəsində və Heydər Əliyev Fondunun xətti ilə milli mədəniyyətimizin daha da zənginləşdirilməsi və mədəni irsin qorunması sahəsində mühüm işlər görülüb. 2003-2023-cü illər ərzində Azərbaycanın 4 mədəni və təbii irsi - Qobustan qaya sənəti mədəni landşaftı (2007-ci il), Xan sarayı ilə Şəki şəhərinin tarixi mərkəzi (2019-cu il), Hirkan meşələri (2023-cü il) və Xınalıq Köç yolu (2023-cü il) UNESCO-nun "Dünya irsi siyahısı"na daxil edilib, bununla da həmin siyahıda Azərbaycanın mədəni və təbii irsinin sayı 5-ə çatıb. Bakı şəhəri (2017-ci il), Şəki şəhəri (2018-ci il) və Lənkəran şəhəri (2019-cu il) UNESCO-nun "Yaradıcı Şəhərlər Şəbəkəsi"nə daxil edilib. Azərbaycanın 24 qeyri-maddi mədəni irs nümunəsi UNESCO-nun "Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısı"nda (22 nümunə) və "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısı"nda (2 nümunə) yer alıb. Azərbaycan üzrə "Tibb və farmakologiyaya aid orta əsrlər əlyazmaları" adı altında 3 əlyazma (Rüstəm Cürcaninin "Zəxireyi-Nizamşahi", Əbülqasim Zəhravinin "Əl-məqələtus-səlasim", Əbu Əli ibn Sinanın "Əl-qanun fit-tibb" əsərləri) 2005- ci ildə, Məhəmməd Füzulinin "Divan"ının surəti 2017-ci ildə, Xurşidbanu Natəvanın "Gül dəftəri" - illüstrasiyalı şeirlər albomu" 2023-cü ildə UNESCO-nun "Dünya yaddaşı reyestri"nə daxil edilib. Ölkədə fəaliyyət göstərən muzey və qalereyalarda 42700-dən artıq sərgi təşkil olunub, ölkə üçün xüsusi əhəmiyyət kəsb edən 36 eksponat xaricdən geri qaytarılıb, 20085 eksponat bərpa olunub. Həmçinin, ölkədə yeni muzey və rəsm qalereyaları yaradılıb, Azərbaycan Prezidentinin 2020-ci il 3 dekabr tarixli 2316 nömrəli sərəncamı əsasında Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin açılışı baş tutub. İşğaldan azad edilmiş ərazilərdə İşğal və Zəfər muzeyləri komplekslərinin təməli qoyulub. Mədəniyyət sahəsində təhsil fəaliyyətini həyata keçirən müəssisələr yaradılıb, habelə son 20 il ərzində 60-dan çox mütəxəssis dövlət dəstəyi ilə xarici təhsil müəssisələrində mədəniyyət ixtisasları üzrə təhsil alıb.

Təsdiqlənən Konsepsiya ilə yeni strateji mərhələdə milli mədəniyyətimizə dövlət qayğısı siyasətinin ardıcıllığı təmin ediləcək. Sənəddə Azərbaycan dili, davranış və bilgi mədəniyyəti, ədəbiyyat, incəsənət və mədəni irs sahələri əhatə olunur. Həmçinin Konsepsiyada "Azərbaycanın mədəniyyət dəyərləri"nə milli-mənəvi dəyərlər, tolerantlıq, Azərbaycan dili, fərdilik və özünəməxsusluq, əlçatanlıq və digərləri aiddir.

Konsepsiyanın 3 mərhələdə həyata keçirilməsi nəzərdə tutulur. Birinci mərhələ 2026-2030-cu, ikinci mərhələ 2031-2035-ci, üçüncü mərhələ isə 2036-2040-cı illəri əhatə edəcək. Üç mərhələdə reallaşdırılacaq Konsepsiya üzrə 6 Dövlət Proqramının layihələrinin hazırlanması nəzərdə tutulur. Bunlar aşağıdakılardır:

-Azərbaycan dilinin və ədəbiyyatının inkişafı ilə bağlı dövlət proqramı;

- Azərbaycanın mədəni və təbii irsinin qorunması ilə bağlı dövlət proqramı;

- İncəsənətin inkişafı ilə bağlı dövlət proqramı;

- Audiovizual sənayenin inkişafı ilə bağlı dövlət proqramı;

- Davranış mədəniyyətinin və bilgi mədəniyyətinin inkişafı ilə bağlı dövlət proqramı;

- Mədəni və yaradıcı sənayenin inkişafı ilə bağlı dövlət proqramı.

**Mühüm hədəf göstəriciləri**

Konsepsiya Azərbaycanın mədəniyyət dəyərlərinin qorunması və Azərbaycan mədəniyyətinin mütərəqqi modelinin formalaşdırılması, Azərbaycan dilinin dünya dilləri arasında mövqeyinin möhkəmləndirilməsi və regional ünsiyyət vasitəsi kimi rolunun artırılması, beynəlxalq səviyyədə təbliğinin və təşviqinin genişləndirilməsi, yeni kommunikasiya modellərinin və alətlərinin tətbiqi vasitəsilə, mədəni irsin müəyyən edilməsi, araşdırılması, bərpası, qorunması və təbliği sahəsində mütərəqqi sistemin yaradılması, mədəni turizmin inkişafı və digər mühüm hədəf göstəricilərini özündə ehtiva edir.



O cümlədən Konsepsiya çərçivəsində Azərbaycan mədəniyyətinin müasir modeli aşağıdakıları nəzərdə tutur:

1. Mədəniyyətin həyat tərzinin ayrılmaz tərkib hissəsinə çevrilməsini;

2. Mədəniyyətin fundamentallığını qorumaqla, fərqli müasir alətlər vasitəsilə bu sahənin funksionallığının təmin edilməsini;

3. Mədəniyyətin elm, təhsil və innovasiyalarla qarşılıqlı əlaqəsinin təmin edilməsini;

4. Azərbaycan cəmiyyətinin mədəni müxtəlifliyinin və birliyinin qorunmasını;

5. Mədəniyyətin bütün sahələrini inkişaf etdirməklə, Azərbaycan mədəniyyətinin potensialından tam istifadə edilməsini;

6. Mədəniyyətə hərtərəfli əlçatanlığın (coğrafi, rəqəmsal, fiziki, iqtisadi və s.) təmin edilməsini;

7. Qloballaşma şəraitində milli kimliyin və milli-mənəvi dəyərlərin qorunmasını;

8. Sürətli rəqəmsallaşma mühitində ənənəvi ünsiyyətin qorunmasını;

9. Azərbaycan mədəniyyətinin beynəlxalq mədəni mübadilədə iştirakının genişləndirilməsini.



Sənədə əsasən, 2040-cı ilə qədər milli kino fondu, dövlət televiziya və radio arxivlərinin tam rəqəmsallaşdırılması nəzərdə tutulub. Milli kino fondunun azı 60 faizinin, dövlət televiziya və radio arxivlərinin hər birinin isə azı 50 faizinin rəqəmsallaşdırılması planlaşdırılıb.

Bununla yanaşı, sözügedən dövrdə mədəniyyət sahəsində dövlət informasiya resurslarının birləşdirilməsi və ya əlaqələndirilməsi, vahid kommunikasiya siyasətinin həyata keçirilməsi məqsədilə "e-culture" platformasının yaradılmasının təmin edilməsi nəzərdə tutulub.

Eyni zamanda, mədəniyyət sahəsində institusional islahatlar aparılacaq, idarəetmənin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanacaq. Belə ki, 2026-2030-cu ilə qədər mədəniyyətin təhsilin tərkib hissəsinə çevrilməsi, o cümlədən mədəniyyət sahələrinə, Azərbaycanın mədəniyyət dəyərlərinə dair fənn və biliklərin tədrisinin təmin edilməsi nəzərdə tutulur.



**Mədəniyyətimizin xarici ölkələrdə təbliği**

Dövlət başçısının təsdiqlədiyi Konsepsiyada zəngin Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təbliği də əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Sənədə əsasən, "Azərbaycan ədəbiyyatı xaricdə" ("Azerbaijani Literature Abroad") layihəsinin təsis edilməsi planlaşdırılır. Bu layihə çərçivəsində Azərbaycan ədəbiyyatının, o cümlədən Azərbaycan elmi ədəbiyyatının tanıdılması, Birləşmiş Millətlər Təşkilatının rəsmi dillərinə, türk dillərinə və digər dillərə sistemli tərcüməsi və yayılması hədəflənir.

Eləcə də, dünyanın aparıcı muzeylərində Azərbaycan mədəniyyəti guşələrinin yaradılması və həmin muzeylərlə əməkdaşlığın genişləndirilməsi diqqət mərkəzində saxlanılacaq. Bu çərçivədə həmçinin Azərbaycanın sənədli irsinin UNESCO-nun "Dünya Yaddaşı Reyestri"nə daxil edilməsi ilə bağlı tədbirlər görülməsi də nəzərdə tutulur. Paralel şəkildə, Azərbaycanın mədəni irs nümunələrinin təbliği məqsədilə onların nüfuzlu onlayn platformalarda yerləşdirilməsi, sərgilənməsi, araşdırılması və digər qaydada tanıdılması üçün normativ-hüquqi bazanın və prosedurların təkmilləşdirilməsi planlaşdırılır.

**Azərbaycan dili ilə bağlı çağırışlar**

"Azərbaycan mədəniyyəti - 2040" Konsepsiyasında Azərbaycan dili ilə bağlı çağırışlar da yer alıb. Sənəddə Azərbaycan dilinin mədəniyyətdəki rolunun gücləndirilməsinə, onun mahiyyətcə inkişafına, həmçinin beynəlxalq səviyyədə təbliğinə və təşviqinə ehtiyac olduğu diqqətə çatdırılır.

Bu istiqamətdə görüləcək tədbirlərə Azərbaycan dilinin rolunun artırılması məqsədilə sistemli fəaliyyətin həyata keçirilməsi, Azərbaycan dilinin inkişafı, təbliği və təşviqi ilə bağlı fəaliyyətin gücləndirilməsi kimi məsələlər daxildir.

Qeyd edilir ki, görülən işlər nəticəsində Azərbaycan ədəbi dili inkişaf edəcək, ana dilində yeni əsərlər yaradılacaq və Azərbaycan dilindən rəqəmsal platformalarda daha geniş istifadə olunacaq.

Konsepsiyada Azərbaycan dilinin inkişafı, o cümlədən beynəlxalq aləmdə təbliği və təşviqi ilə bağlı əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi, ana dilində elmi, elmi-publisistik və bədii əsərlərin sayının və keyfiyyətinin artırılması, Azərbaycan dilinin yayılma coğrafiyasının genişləndirilməsi və beynəlxalq ünsiyyətdəki rolunun artırılması məqsədilə tədbirlərin görülməsi də öz əksini tapıb.

***Mübariz ABDULLAYEV***

# TRIPP bütün regionda rifahı və təhlükəsizliyi artıracaq



Məlum olduğu kimi, ABŞ Dövlət Departamenti "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun" (TRIPP) icra çərçivəsinin qəbul edildiyini açıqlayıb. Qurumun açıqlamasında bildirilir ki, bu sənəd Cənubi Qafqazda davamlı sülhün təmin edilməsi üçün 8 avqust 2025-ci ildə Ağ Evdə qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsi istiqamətində atılan son addımdır. Çərçivə Ermənistan ərazisində maneəsiz, multimodal tranzit əlaqəsi yaratmaq məqsədi daşıyan TRIPP-in fəaliyyətə başlaması üçün konkret bir yol göstərir.

Sənəddə vurğulanır ki, Azərbaycanın əsas hissəsini və Naxçıvan Muxtar Respublikasını birləşdirən TRIPP Trans-Xəzər Ticarət Marşrutunda vacib bir əlaqə yaradır. "Prezident Trampın ev sahibliyi etdiyi 8 avqust 2025-ci il tarixində keçirilən tarixi Sülh Zirvəsində təsdiq edilmiş prinsipləri əks etdirən TRIPP icra çərçivəsi TRIPP-in ümumi uğuru üçün suverenliyin, ərazi bütövlüyünün və qarşılıqlılığın vacibliyini vurğulayır. TRIPP-in əsas məqsədi regional ticarət və əlaqələri genişləndirməklə, eləcə də Mərkəzi Asiya və Xəzər dənizini Avropa ilə birləşdirən yeni tranzit imkanları yaratmaqla Ermənistan və Azərbaycanın rifahını və təhlükəsizliyini gücləndirmək, Amerika ticarətini daha da inkişaf etdirməkdir".




ABŞ Dövlət katibi Marko Rubio çərçivə sənədinin qəbulundan sonra bəyanat verərək bildirib ki, sənəd beş ay əvvəl Azərbaycan, ABŞ, Ermənistan liderlərinin zaladığı tarixi sülh sammitinin qoyduğu öhdəliklərə əsaslanır.

"TRIPP Cənubi Qafqazın ticarət, tranzit və enerji axını sahəsindəki potensialını ortaya çıxaracaq və bütün regionda rifahı və təhlükəsizliyi artıracaq".

**XİN: Çərçivə sənədinin qəbulu TRIPP-in icrasına başlamaq üçün mühüm addımdır**



Məsələyə münasibətini bildirən Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) bəyan edib ki, TRIPP-in icrası üzrə çərçivə sənədinin qəbul edilməsi 8 avqust Vaşinqton sammiti çərçivəsində əldə olunmuş razılıqlar ABŞ tərəfinin sadiqliyini bir daha nümayiş etdirməklə yanaşı, bu sahədə əməli işlərə başlamaq üçün mühüm addımdır. XİN-in Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib ki, bu, eyni zamanda, Ermənistanın üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi baxımından əhəmiyyət kəsb edir: "Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi ölkəmizin əsas prioritetlərindən biridir. TRIPP marşrutu bununla yanaşı, daha geniş bölgədə ticarət və bağlantıların şaxələndirilməsi baxımından vacibdir".

**Hakan Fidan: Zəngəzur dəhlizinin Azərbaycanın istədiyi kimi həyata keçəcəyinə inanırıq**

Türkiyənin xarici işlər naziri Hakan Fidan Azərbaycan ilə Ermənistan arasında paraflanan sülh sazişinin imzalanaraq həyata keçirilməsini gözlədiklərini bildirib. Nazir Vaşinqtonda Tramp Beynəlxalq Sülh və Rifah Marşrutunun (TRIPP) fəaliyyətə başlaması üçün Ermənistanla əldə edilmiş razılıqları müsbət dəyərləndirərək Zəngəzur dəhlizinin Azərbaycanın istədiyi kimi həyata keçəcəyinə inandığını xatırladıb: "Azərbaycanı Naxçıvana quru yolu ilə bağlayacaq bu dəhliz həm Orta Dəhliz, həm də Türkiyənin Türk dünyasına açılması baxımından olduqca mühümdür".

H.Fidan sülh sazişinin tam təmin olunması üçün Ermənistanın həyata keçirməsi lazım olan öhdəliklərin qaldığını Nikol Paşinyanın bu istiqamətdə göstərdiyi müsbət iradəni dəstəklədiyini vurğulayıb.

**TRIPP Cənubi Qafqaz üçün strateji yolun başlanğıcıdır**

Gürcüstan Strateji Analiz Mərkəzinin regional proqramlar üzrə direktoru, politoloq Gela Vasadze bildirib ki, TRIPP layihəsi ayrıca bir nəqliyyat təşəbbüsü deyil, Cənubi Qafqaz ölkələri qarşısında dayanan daha genişmiqyaslı strateji vəzifənin tərkib hissəsidir. "Cənubi Qafqazın vahid geoiqtisadi, perspektivdə isə geosiyasi məkan kimi formalaşır. Bu məkan elə qurulmalıdır ki, region ölkələri qlobal müsbət çağırışlara cavab verə bilsin və eyni zamanda, mənfi ssenarilərin, yəni Cənubi Qafqaz dövlətlərinin dünya və regional güc mərkəzlərinin qarşıdurmasında "proksi" alətinə çevrilməsi cəhdlərinin qarşısını ala bilsin. Məhz TRIPP layihəsi bu baxımdan ilk və prinsipial addımdır".

O qeyd edib ki, simvolik çəkisinə görə TRIPP bu gün Bakı-Tbilisi-Ceyhan layihəsi ilə müqayisə oluna bilər. Məhz BTC boru kəməri vaxtilə Gürcüstanın və Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində, dayanıqlı inkişafında təməl rol oynamışdı. "TRIPP yalnız Qərbi Zəngəzurla Naxçıvan arasında nəqliyyat bağlantısı demək deyil. Bu layihənin icrası Ermənistanın Azərbaycan və Türkiyə ilə nəqliyyat kommunikasiyalarının açılması üçün əsas şərtdir. Qarşıda böyük işlər dayanır, lakin əsas məsələ prosesə başlanılmasıdır. İstənilən yol ilk addımla başlayır. Bu baxımdan TRIPP layihəsi Cənubi Qafqaz üçün strateji yolun başlanğıcıdır və bu yolu gedən mütləq nəticəyə çatacaq".

# Tarixi rekord - 10 min meqavat həcmində enerji gücü!



Bu günlərdə Əbu-Dabidə Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin (IRENA) 16-cı Assambleyası keçirilib. İki gün davam edən assambleyada Azərbaycan da təmsil olunub.

Ölkəmizin belə bir mötəbər tədbirə dəvət alması isə heç də təsadüfi deyil. Azərbaycan dünyada enerji transformasiyası çağırışlarına həssas yanaşan ölkələr sırasında yer alır. Respublikamız davamlı olaraq öz imkanlarını təqdim etməklə enerji keçidi təşəbbüslərinə dəstək verir ki, bu da dünyada təqdirlə qarşılanır.

## Yeni qlobal çağırışlar

Hazırda dünyanın əsas çağırışlarından biri enerji keçidi ilə bağlıdır. Mövcud geosiyasi gərginliklər fonunda Avropa İttifaqı (Aİ) "REPowerEU" adlandırılan xilas planını hazırlayıb ki, burada da enerjiyə tələbatın qarşılanması, bütövlükdə, yeni şəraitdə iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün bərpaolunan mənbələrdən alınan enerjinin həcmlərinin artırılması üstün prioritet kimi müəyyənləşdirilib.

Müasir dünyada enerji keçidinin labüdlüyü Beynəlxalq Enerji Agentliyinin (BEA) hesabatında da vurğulanıb. Bildirilir ki, dünya bərpaolunan enerjiyə doğru qarşısıalınmaz bir keçiddədir. Hesabatda təmiz enerji və texnologiyalarda artımın qənaətbəxş olduğu qeyd edilib. Belə ki, 2020-ci ildə satılan hər 25 avtomobildən biri elektriklə işləyirdi, amma cəmi 3 il sonra bu rəqəm beşdəbirə yüksəlib.

BEA hesab edir ki, təmiz enerji texnologiyaları 2030-cu ilə qədər dünya enerji sistemində indikindən daha böyük rol oynayacaq. Yollarda elektriklə işləyən avtomobillərin sayı 10 dəfə artacaq, qlobal elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payı 20 faiz çoxalacaq. BEA-nin dəyərləndirmələrinə görə, bərpaolunan enerji mənbələri 2030-cu ilə qədər elektrik enerjisi istehsal gücünün 80 faizini təşkil edəcək. Təkcə Günəş enerjisi bu artımın yarısını ödəyəcək. 2030-cu ilə qədər ümumi 800 qiqavat gücündə yeni Günəş elektrik stansiyaları yaradılarsa, Çində kömürdən elektrik enerjisi istehsalı 20 faiz, Latın Amerikası, Afrika, Cənub-Şərqi Asiya və Yaxın Şərqdə isə kömür və qazdan elektrik enerjisi istehsalı 25 faiz azala bilər.

Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin hesabatında isə bildirilir ki, ötən il bərpaolunan enerjiyə qlobal investisiyalar 807 milyard dollara çatıb. Bütövlükdə, enerji keçidinə qlobal investisiyalar ötən il rekord həddə - 2,4 trilyon dollara yüksəlib. Bu məbləğin təxminən üçdə biri bərpaolunan enerji



texnologiyalarına yönəldilib. Hesabata əsasən, bərpaolunan enerjiyə qoyulan investisiyaların 96 faizi elektrik enerjisi sektorunda cəmləşib. Günəş enerjisi sərmayələri isə keçən il 49 faiz artaraq 554 milyard dollarla bütün zamanların ən yüksək səviyyəsinə çatıb.

Son bir ildə enerji konvertasiyası texnologiyalarına investisiyaların 90 faizi inkişaf etmiş ölkələrdə və Çində cəmləşib, inkişaf etməkdə olan və az inkişaf etmiş ölkələr isə geridə qalıb.

Yeni qlobal çağırışların yarandığı indiki məqamda enerji transformasiyası Azərbaycanın da gündəliyində dayanan vacib məsələlər sırasındadır. Karbohidrogen resursları ilə zəngin olan respublikamız da elektrik enerjisi istehsalında yaşıl enerjinin xüsusi çəkisinin artırılmasını hədəfləyib. Bu da onunla bağlıdır ki, respublikamız bərpaolunan enerji mənbələri ilə kifayət qədər zəngin bir diyardır. Ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki baxımdan istifadəsi mümkün olan bərpaolunan enerji mənbələrinin potensialı 27000 MVt, o cümlədən külək enerjisi üzrə 3000 MVt, Günəş enerjisi üzrə 23000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

## Azərbaycanın geniş imkanları və enerji keçidi çağırışlarına sadiqliyi

Eyni zamanda, Azərbaycan dövləti bu potensialdan daha səmərəli istifadə olunmasına güclü siyasi iradə nümayiş etdirir. Qeyd edək ki, son illərdə respublikamızda külək enerjisi istehsalı 131 dəfə, Günəş enerjisi istehsalı isə 55 dəfə artıb. Külək və Günəş enerjisi istehsalının növbəti illərdə artan templə davam edəcəyi gözlənilir. Ölkəmiz növbəti illərdə bərpaolunan enerjinin ümumi istehlakda payını artırmaq niyyətindədir. Bu sahədə 2030-cu ilədək qarşıya qoyulan hədəf bərpaolunan enerjinin ümumi istehlakda payının 30 faizdən çox artırılmasına nail olmaqdan ibarətdir.

Ölkəmizdə mövcud imkanların reallaşdırılması istiqamətində ardıcıl işlər görülür, yeni-yeni layihələr reallaşdırılır. Respublikamızda 26 oktyabr 2023-cü il tarixində 230 meqavat gücündə Günəş elektrik stansiyası istismara verilib. Son olaraq yanvarın 8-də Bakıda, "Gülüstan" sarayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimi baş tutub. Yaşıl enerji vadisi kimi dəyərləndirilən işğaldan azad edilmiş ərazilərdə son 5 il ərzində dövlət vəsaiti hesabına 40-a yaxın kiçik su elektrik stansiyası inşa edilib. Bu gün onların ümumi potensialı 300 meqavatdan çoxdur. Hazırda Cəbrayıl rayonunda üç Günəş elektrik stansiyası inşa edilir. Bu 3 stansiyanın ümumi potensialı 340 meqavata bərabərdir. "Son 20 il ərzində ölkəmizdə yaradılmış generasiya gücləri bütün əvvəlki dövrlə müqayisədə təxminən üç dəfə artmışdır. Bu gün bizim generasiya gücümüz təxminən 10 min meqavata bərabərdir. Bu, tarixi rekorddur. Bunu Prezident İlham Əliyev "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimindəki çıxışında da bildirib.

Gələcək planlar da kifayət qədər böyükdür. İmzalanmış müqavilələr əsasında 2030-cu ilə qədər altı, 2032-ci ilə qədər isə, ümumiyyətlə, 8 giqavat gücündə külək və Günəş elektrik stansiyaları inşa ediləcək. Qarabağ və Şərqi Zəngəzurda isə təqribən 500-600 meqavat gücündə kiçik su elektrik stansiyalarının inşası nəzərdə tutulur. Eləcə də ölkəmizdə ilk dəfə olaraq Batareya Enerji Saxlanc Sistemi də yaradılır.

## Aktual məsələlərin müzakirə olunduğu platforma

Azərbaycanın da təmsil olunduğu Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin 16-cı Assambleyası aktual məsələlərin müzakirələrinin aparıldığı qlobal platformadır. "İnsanlığı gücləndirmək: bərpaolunan enerji ilə paylaşılan rifah" şüarı ilə keçirilən tədbirdə təşkilata üzv dövlətlərin yüksəksəviyyəli nümayəndələri, enerji sahəsində qərarverici şəxslər iştirak ediblər. Azərbaycan Energetika Nazirliyi yanında Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyinin direktor müavini Rəna Hümbətova tədbirə qatılıb. Assambleya çərçivəsində, həmçinin IRENA-nın "BƏƏ Konsensusu üzrə hədəflərin yerinə yetirilməsi: bərpaolunan enerji gücünün üçqat artırılması və enerji səmərəliliyinin ikiqat artırılması üzrə irəliləyişin monitorinqi" adlı ikinci hesabatı təqdim olunub. Tədbirdə IRENA Assambleyasının 17-ci sessiyasının vitse-prezidentliyinə dörd ölkənin, o cümlədən də Azərbaycanın namizədliyi təqdim olunub.

Assambleya çərçivəsində nazirlər iclası və digər yüksəksəviyyəli sessiyalar təşkil edilib. Bu sessiyalarda bərpaolunan enerjinin kənd təsərrüfatı və qida sistemlərində potensial tətbiqi, geotermal enerjinin inkişafı, enerji təhlükəsizliyinin təmin olunması, enerji keçidinin maliyyə baxımından səmərəliliyi və kritik materiallarla bağlı mövzulara diqqət yetirilib.

Azərbaycan 2009-cu ildən IRENA-nın üzvlüyünə qəbul edilib və 2014-cü il mayın 2-də Milli Məclisin qərarı ilə agentliyin nizamnaməsinin ratifikasiyası ilə onun tamhüquqlu üzvü olub. Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin Assambleyasının 13-cü Sessiyasında qəbul edilmiş qərara əsasən, Azərbaycan 2023-2024-cü illər üzrə IRENA Şurasına üzv seçilib.

*Mübariz FEYİZLİ*



# Qarşılıqlı etimad əsasında

## Azərbaycan və İsrail aqrar sahədə əməkdaşlığın yeni yol xəritəsini müəyyənləşdirir

Azərbaycan və İsrail mövcud potensiallarından səmərəli istifadə etməklə aqrar sahədə tərəfdaşlığı daha da dərinləşdirmək, qarşılıqlı təcrübə mübadilələrini artırmaq niyyətindədir. Hər iki ölkə "Kənd təsərrüfatı sahəsində əməkdaşlıq üzrə Niyyət Bəyannaməsi" və Kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair yol xəritəsi"nin hədəflərinə uyğun olaraq ortaq layihələrin həyata keçirilməsini təmin etmək üçün birgə işçi qrupu səviyyəsində fəallığı artırmaqdadır. İsraildə səfərdə olan kənd təsərrüfatı naziri Məcnun Məmmədovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti ilə qarşı tərəf arasında keçirilən görüşdə bu sahədə mövcud vəziyyət və əməkdaşlığın yeni istiqamətlərinə diqqət çəkilib. Bildirilib ki, səfər iki ölkə arasında aqrar sahədə əməkdaşlığın yeni mərhələyə keçməsi və elmi-praktik əlaqələrin inkişafı üçün mühüm addım hesab olunur.

Səfər çərçivəsində nümayəndə heyəti İsrailin kənd təsərrüfatı sahəsində aparıcı tədqiqat və araşdırma mərkəzlərinə baş çəkib, İsrailin Kənd Təsərrüfatı və Qida Təhlükəsizliyi Nazirliyində Azərbaycan və İsrail nümayəndə heyətləri arasında görüş keçirilib. İsrailli nazir Avi Dixter Azərbaycana ərzaq təhlükəsizliyi sahəsində verdiyi dəstəyə görə təşəkkürünü bildirib və iki ölkə arasında aqrar sahədə əməkdaşlıq perspektivlərinin genişləndiriləcəyini vurğulayıb. Bildirilib ki, bu cür müzakirələr ticarət dövriyyəsinin artırılmasına, heyvandarlıq və toxumçuluq sahələrində texnologiya transferinə, aqrar tədqiqat və təcrübə proqramlarının inkişafına, həmçinin suvarma sahəsində İsrail təcrübəsinin Azərbaycanda tətbiqinə töhfə verməkdədir.

### Birgə sərmayə qoyuluşları artır

Məcnun Məmmədov iki ölkə arasında aqrar sahədə əməkdaşlığın dərinləşdirilməsinə hazır olduqlarını bildirib. O, Bakıda iki il əvvəl imzalanmış niyyət bəyannaməsi və yol xəritəsinin əməkdaşlığın yeni mərhələyə yüksəlməsində mühüm rol oynadığını qeyd edib. Görüş zamanı yol xəritəsinin təkmilləşdirilməsi barədə ilkin razılıq əldə olunub.



Azərbaycan və İsrail arasında iqtisadi əlaqələr son illərdə daha da inkişaf edərək yeni sahələrdə birgə layihələrin icrası üçün dərin zəmin yaratmaqdadır. Hər iki ölkənin biznes icması və iqtisadi strukturları arasında intensivləşən münasibətlər iqtisadi-ticari, investisiyalar üçün yeni imkanlar açır. Həmçinin, davamlı xarakter alan Biznes-forumlar sahibkarlar arasında təşəbbüskarlığı daha da artırır.

Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiya, həmçinin Azərbaycanın İsraildəki Ticarət nümayəndəliyi ölkələrimiz arasında tərəfdaşlığın inkişafı üçün əhəmiyyətli platformalar kimi mühüm yer tutur. Əlaqələrin daha da gücləndirilməsi, yeni sahələrdə fəaliyyət imkanlarının araşdırılmasında Birgə Komissiya mühüm platforma kimi faydalı nəticələrin əldə olunmasına töhfə verir. Həmçinin, İsraildə əsası qoyulmuş Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyası iki ölkə arasında mədəni, elmi, iqtisadi əməkdaşlığın genişlənməsində böyük rol oynayır.

Hazırda Azərbaycanda sənaye, kənd təsərrüfatı, tikinti, ticarət və xidmət sahələri üzrə 125 İsrail kapitallı kommersiya qurumu fəaliyyət göstərir. Azərbaycan və İsrail şirkətləri maliyyə və qida texnologiyaları, kənd təsərrüfatı və səhiyyə sahələrində fəal iş həyata keçirir. Bu da Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və texnoloji inkişafı baxımından əhəmiyyətlidir. Eyni zamanda, kənd təsərrüfatı, qida, su və enerji texnologiyaları, dərman sənayesi, biotexnologiya və digər sahələrdə fəaliyyətin genişləndirilməsi üçün böyük potensial mövcuddur və İsrail şirkətlərinin bu sahələrə sərmayə yatırımlarında dinamika nəzərə çarpır.

### "Gələcəyin dənizi" Qlobal Sammitin əhəmiyyəti

Azərbaycanın nümayəndə heyətinin İsraildə təşkil edilən "Gələcəyin Dənizi" II Mavi Qida Təhlükəsizliyi Qlobal Sammitində iştirakı da mühüm əhəmiyyət daşıyır.

Qeyd edək ki, azərbaycanlı mütəxəssislər İsrailin Volcani Institute Aqrar Tədqiqatlar Mərkəzinin fəaliyyəti ilə də tanış olublar. Mərkəz İsrail hökumətinin Eilat regionu dəniz və səhra məhsullarının istehsalı üzrə ixtisaslaşmış mərkəzə çevirmək strategiyasının tərkib hissəsi kimi yaradılıb. Ən müasir biotexnologiyaların tətbiq və nümayiş olunduğu bu mərkəzin əsas hədəflərindən biri Qırmızı dəniz regionunda unikal dəniz fermalarının yaradılması və akvakultura tədqiqatlarının inkişaf etdirilməsidir. Burada Eilat körfəzinin təbii üstünlüklərindən istifadə etməklə dəniz məhsullarının müasir üsullarla istehsalı həyata keçirilir.

İsrailin Kənd Təsərrüfatı və Aqrar İnkişaf Nazirliyinin aqrar tədqiqatlar üzrə əsas qurumu kimi fəaliyyət göstərən institut bitkiçilik, heyvandarlıq, bitki mühafizəsi, torpaq və ətraf mühit elmləri,




eləcə də qida elmləri sahələrində aparılan elmi tədqiqatları dəstəkləyir.

Tərəflər aqrar tədqiqatlar sahəsində əməkdaşlığın genişləndirilməsi, kadr hazırlığı, təhsil sahəsində və iki ölkənin şirkətləri arasında kənd təsərrüfatının müxtəlif sahələri üzrə əməkdaşlıq barədə əldə edilmiş razılığa əsasən yeni imkanları nəzərdə keçirir. Hazırda işğaldan azad edilmiş ərazilərdə İsrailin "yaşıl texnologiyalar" təcrübəsindən geniş istifadə edilir və bu texnoloji layihələrin miqyasının artırılması istisna deyil.

### Biznes forumlar iqtisadi təmasları gücləndirir

İsrail Azərbaycanın əsas ticarət tərəfdaşları sırasında mühüm yer tutur. Bu ölkə ilə respublikamız arasında qarşılıqlı investisiya, həmçinin, energetika, kənd təsərrüfatı, İT, innovasiya, əczaçılıq, turizm və s. sahələr üzrə səmərəli əməkdaşlıq mövcuddur. İsrail şirkətləri ilə həmçinin, sənaye zonaları və aqroparklar, su təsərrüfatı və digər sahələr üzrə də tərəfdaşlıq edilir. İsraillə innovativ inkişaf və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlıq Azərbaycan üçün xüsusi önəm daşıyır.

Azərbaycanın İsraildə səfirliyinin fəaliyyətə başlaması münasibətlərin yeni mərhələyə yüksəlməsində təkanverici rol oynayıb, bir sıra sahələrdə birbaşa təmaslar ümün hüquqi-iqtisadi sütunlar yaradıb.

Qarşılıqlı münasibətlərin inkişafında Azərbaycan-İsrail Biznes forumları da mühüm rol oynamaqdadır. Tərəflər arasında ötən illərdə imzalanmış kənd təsərrüfatı sahəsində əməkdaşlıq sazişi, gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" konvensiya, iqtisadi sahəyə dair anlaşma memorandumları ticari-investisiya dinamikasını artırıb. Son illərdə ticari mübadilələrin həcmi artaraq 1 milyard dollara yaxınlaşıb.

***E.CƏFƏRLİ***

# Azərbaycanın pasport mövqeyi beynəlxalq reytinqdə yüksəlib

Azərbaycan "Henley & Partners" beynəlxalq konsaltinq şirkəti tərəfindən açıqlanan 2026-cı il üçün yenilənmiş Pasport Reytinqində mövqeyini yaxşılaşdıraraq 3 pillə irəliləyib və 67-ci yerə yüksəlib. Reytinqə görə, respublika vətəndaşları 70 ölkəyə vizasız səfər edə bilərlər.

Sinqapur ən güclü pasporta malik ölkələr arasında liderliyini yenidən qoruyub saxlayıb. Bu ölkənin vətəndaşları təhlil edilmiş 227 ölkədən




192-nə vizasız və ya ölkəyə gəldikdən sonra viza almaqla səfər edə bilərlər. İraq (29 ölkəyə vizasız səfər), Suriya (26 ölkəyə vizasız) və Əfqanıstan (24 ölkə vizasız) reytinqin son pilləsində qərarlaşıb.

Postsovet ölkələri arasında Azərbaycan 7-ci yerdədir və Ukrayna (30-cu yer, 143 ölkə vizasız), Gürcüstan (42-ci yer, 122 ölkə vizasız), Moldova (44-cü yer, 120 ölkə vizasız), Rusiya (46-cı yer, 113 ölkə vizasız), Belarus (60-cı yer, 79 ölkə vizasız) və Qazaxıstandan (61-ci yer, 78 ölkə vizasız) sonra gəlir. Azərbaycan Ermənistan (71-ci yer, 66 ölkə vizasız), Qırğızıstan və Özbəkistan (75-ci yer, 61 ölkə vizasız), Tacikistan (81-ci yer, 54 ölkə vizasız) və Türkmənistandan (87-ci yer, 47 ölkə vizasız) irəlidədir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən bildirilib ki, reytinqin nəticələrinə əsasən, Azərbaycan Respublikası vətəndaşları 70 ölkəyə vizasız, gəlişdə viza və ya elektron viza vasitəsilə səfər etmək imkanına malikdirlər.

Qeyd edək ki, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya çərçivəsində yaradılmış "Beynəlxalq sazişlər üzrə" İşçi qrupunun fəaliyyəti çərçivəsində qarşılıqlı vizasız gediş-gəliş rejimlərinin genişləndirilməsi, beynəlxalq sazişlərin sayının artırılması və institusional islahatların həyata keçirilməsi Azərbaycanın beynəlxalq pasport reytinqlərində mövqeyinin möhkəmləndirilməsinə mühüm töhfə verir.

# Əmək pensiyaları 9 faizə yaxın artacaq

Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sədri Zəka Mirzəyev bildirib ki, ötən il əmək pensiyalarında 8,1 faiz səviyyəsində indeksləşdirilmə aparılıb, lakin orta aylıq göstərici həmin faiz göstəricisindən də yuxarı olub, yəni 9 faizi ötüb. Bildirilib ki, pensiyalarda artım "Əmək pensiyaları haqqında" qanunda nəzərdə tutulduğu kimi indeksləşdirmə yolu ilə həyata keçirilir. "Bu, Dövlət Statistika Komitəsinin elan etdiyi əvvəlki ilin orta aylıq əməkhaqqı məbləğinin nominal artım göstəricisinə uyğun şəkildə həyata keçirilir. Hələ ki, bu göstərici rəsmi şəkildə açıqlanmayıb. Lakin çox güman ki, yaxın günlərdə bununla bağlı rəsmi açıqlama olacaq və gözləntimiz ondan ibarətdir ki, operativ məlumatlara görə əmək pensiyalarında artım, indeksləşdirmə tətbiq ediləcək artım hesabına 9 faiz ətrafında olacaq.



Z.Mirzəyev bildirib ki, ötən il əmək pensiyalarının illik indeksləşdirilməsi (8,1 faiz) ilə bağlı DSMF-nin büdcəsindən əlavə 520 milyon manat vəsait ayrılıb. "2025-ci il yanvarın 1-dən minimum aylıq əməkhaqqı 16 faiz artırılaraq 400 manata çatdırılıb: Eyni zamanda, 2025-ci il fevralın 1-dən minimum pensiya 14,3 faiz artırılaraq 320 manat müəyyən edilib. Nəticədə, ötən il orta aylıq pensiya 2024-cü illə müqayisədə 9,3 faiz artaraq 543 manata, yaşa görə pensiya isə 9,1 faiz artaraq 578 manata çatıb. 2025-ci ildə pensiya ödənişlərinə 7,1 milyard manat vəsait xərclənib ki, bu da əhaliyə yönəldilən ümumi sosial ödəniş xərclərinin 97,6 faizdən çoxunu təşkil edib.



Fond sədrinin sözlərinə görə, hazırda pensiya alanların ümumi sayı 1 milyon 98 min 651 nəfərdir. Orta aylıq pensiya hazırda orta aylıq əməkhaqqının 49,9 faizini, yaşa görə pensiya isə 53,2 faizini təşkil edir. Bu göstəricilər beynəlxalq təşkilatların tövsiyə etdiyi 40-60 faizlik mütənasiblik normativlərinə uyğundur.

Ötən il 76 min aztəminatlı ailənin 335 mindən çox üzvünə isə ünvanlı sosial yardım ödənilib. Onlara DSMF-nin büdcəsi hesabına 420 milyon manat ünvanlı sosial yardım ödənilib: "2025-ci il dekabrın 22-də Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncama əsasən, 2025-ci il dekabrın 30-u tarixinə 200 manat ünvanlı dövlət sosial yardımı alan hər bir ailəyə birdəfəlik ödəniş üçün dövlət büdcəsindən 15 milyon 300 min manat ayrılıb.

Fond sədri vurğulayıb ki, 2022-ci ildən Dövlət Sosial Müdafiə Fondunun fəaliyyətinə daxil edilən dövlət icbari şəxsi sığorta ödənişləri üzrə ötən il 11 minə yaxın şəxsin müraciətinə baxılıb və onlara 25 milyon manat ödəniş edilib: "Prezidentin 2021-ci il fərmanına əsasən, 1997-ci ilin avqustuna qədər əlilliyi müəyyən edilmiş 26 min şəxsin sənədləri araşdırılıb. Bu günə qədər 17 794 şəxsə əlillik dərəcəsindən asılı olaraq 4400, 6600 və 8800 manat məbləğində birdəfəlik ödənişlər edilib. Bu məqsədlə dövlət büdcəsindən 115,2 milyon manat vəsait xərclənib.

***Nardar***

# 2026-cı ildə geoiqtisadi risklər artacaq

## Dünya İqtisadi Forumu qlobal hesabatı açıqlayıb

Dünya İqtisadi Forumu (DİF) 2026-cı ildə qlobal risklərlə bağlı hesabatı təqdim edib. Sənəddə vurğulanır ki, rəqabət dövründə geosiyasi və iqtisadi risklər artır. Geoiqtisadi münaqişə 2026-cı il üçün ən böyük qlobal risk kimi ortaya çıxır, onun ardından dövlətlərarası münaqişə, ekstremal hava hadisələri, sosial qütbləşmə, saxta xəbərlər və dezinformasiya gəlir. Sorğuda iştirak edənlərin yarısı növbəti iki ildə bizi qarışıq və ya təlatümlü bir dünyanın gözlədiyini söyləyir. Araşdırmaya görə, bu rəqəm ötən illə müqayisədə 14 bal artım deməkdir. Respondentlərin 40 faizi növbəti iki ildə ən azı qeyri-sabitlik proqnozlaşdırır, 9 faizi sabitlik, 1 faizi isə əmin-amanlıq gözləyir. Növbəti 10 ilə nəzər saldıqda, 57 faizi qarışıq və ya təlatümlü bir dünya, 32 faizi qeyri-sabitlik, 10 faizi sabitlik və 1 faizi əmin-amanlıq gözləyir.

Hesabatda risklər 3 zaman çərçivəsində təhlil edilib:

* Yaxın müddət (2026-cı il)
* Qısa və orta müddət (2027-2028-ci illər)
* Uzunmüddətli dövr (10 illik müddət )

Proqnozlara görə, yaxın müddətdə silahlı münaqişələr, iqtisadi vasitələrin silah kimi istifadəsi və sosial parçalanma bir-biri ilə əlaqəlidir. Bu risklər gücləndikcə, texnoloji sürətlənmədən ətraf mühitin pozulmasına qədər uzunmüddətli çətinliklər də zəncirvari reaksiya yaradır.

Qısamüddətli reytinqdə geoiqtisadi münaqişə ən yüksək yerdədir. İştirakçıların 18 faizi bunu 2026-cı ildə qlobal böhrana səbəb olma ehtimalı ən yüksək olan risk kimi görür. Dövlətlər tərəfindən maliyyələşdirilən silahlı münaqişə 2026-cı il üçün 2-ci yerdədir, lakin ikiillik müddət ərzində 5-ci yerə enir.

Geosiyasi perspektivə gəldikdə, iştirakçıların 68 faizi növbəti onillikdə çoxqütblü və ya parçalanmış bir nizam gözləyir. Bu rəqəm ötən illə müqayisədə 4 faiz bəndi artıb.

### Sosial qütbləşmə və bərabərsizlik çoxalacaq

İqtisadi risklər ikiillik perspektivdə ən böyük ardıcıl artımı göstərir. İqtisadi tənəzzül və inflyasiya riskləri 8 pillə yüksələrək müvafiq olaraq 11-ci və 21-ci yerə, səhmlərin şişirdilməsinin partlaması riski isə 7 pillə yüksələrək 18-ci yerə qalxıb. Feyk xəbərlər və dezinformasiya ikiillik proqnozda ikinci, kibertəhlükəsizlik isə altıncı yerdədir. Süni intellektin mənfi nəticələri ən diqqətəlayiq yüksəliş tendensiyasını göstərir və ikiillik proqnozda 30-cu yerdən onillik proqnozda 5-ci yerə yüksəlir ki, bu da onun əmək bazarlarına, cəmiyyətə və təhlükəsizliyə təsiri ilə bağlı narahatlıqları əks etdirir.

Sosial qütbləşmə 2026-cı ildə dördüncü, 2028-ci ildə isə üçüncü yerdədir. Bərabərsizlik həm iki, həm də onillik proqnozlarda yeddinci yerdədir. Zəifləmiş sosial mobillik və digər risklərdən qaynaqlanan bərabərsizlik ardıcıl ikinci ildir ki, ən çox əlaqəli risk adlandırılıb. İqtisadi tənəzzül ikinci ən çox əlaqəli riskdir. Bu əlaqələrin təməlində yaşayış xərcləri ilə bağlı təzyiqlər və iqtisadiyyatların qurulması ilə bağlı narahatlıqlar dayanır.

Qısamüddətli narahatlıqlar uzunmüddətli hədəfləri üstələdiyindən, iki illik proqnozda ətraf mühit riskləri sıralamada azalıb. Ekstremal hava şəraiti 2-ci yerdən 4-cü yerə, çirklənmə 6-cı yerdən 9-cu yerə düşüb, Yer sistemlərində kritik dəyişikliklər və biomüxtəlifliyin itirilməsi isə yeddi və beş mövqe geriləyib.




### Süni intellekt iqtisadiyyata risklər yaradır

Dünyanın nüfuzlu beyin mərkəzləri də qlobal risklərlə bağlı müxtəlif proqnozlarla çıxış edir. Ehtimallara görə, 2026-cı il beynəlxalq təhlükəsizlik, iqtisadiyyat, texnologiya və sosial stabillik baxımından kritik il kimi yadda qalacaq. ABŞ-ın NATO və Avropa İttifaqı kimi alyanslarla münasibətlərində mürəkkəblik artacaq, Vaşinqtonun xarici siyasətdə gözlənilməz addımlar atması beynəlxalq ticarətdə və diplomatik proseslərdə mənfi nəticələrə yol aça bilər. Siyasi qeyri-sabitlik qlobal iqtisadiyyat və təhlükəsizlik sistemi üçün domino effekti yarada bilər. Hər hansı bir daxili siyasi böhranın xarici siyasətə ötürülməsi nəticəsində regional münaqişələr şiddətlənə bilər.

2026-cı ildə qlobal iqtisadiyyatda süni intellekt (Sİ) investisiyalarının yaratdığı çətinliklər də əsas problemlər sırasında fərz edilir. Beynəlxalq Valyuta Fondunun (BVF) icraçı direktoru Kristalina Georgieva isə bildirib ki, süni intellekt və rəqəmsal texnologiyalar hazırda iş mühitini sürətlə dəyişdirməkdədir. Böyük texnologiya şirkətlərindəki son işdən çıxarılmalar, hətta innovasiyalar baxımından ön sıralarda gedənlərin də bu dəyişikliyə məruz qaldığını göstərir. Süni intellekt və avtomatlaşdırma bəzi peşələrin sonu olsa da, yeni bacarıqların, tapşırıqların və tamamilə yeni peşələrin yaranmasına səbəb olub. Vurğulanır ki, iqtisadi qazanc isə bacarıqlara və uyğunlaşmaya qoyulan investisiyalarla müəyyən ediləcək. Süni intellekt dövründə iş tapmaq və iş yerlərini qoruyub saxlamaq getdikcə yeni bacarıqlar əldə etməkdən asılıdır. İşçilərin iş tapmaq və ya mövcud işlərini qoruyub saxlamaq qabiliyyəti isə yeniliklərə uyğunlaşmaqdan asılıdır.

Eləcə də zəka texnologiyalarının sənaye cəmiyyətlərində rolunun artması inflyasiyanı artıran amil kimi dəyərləndirilir. Belə ki, Sİ infrastrukturu, server mərkəzləri və texnoloji avadanlıqlar üçün böyük miqdarda sərmayələr xərclənir. Bu, enerji və xammal tələbini artıraraq istehsal xərclərini də yüksəldir. Nəticədə, qiymətlərin artması, bazar xərclərinə və qiymət indekslərinə mənfi təsir göstərir.




Beynəlxalq İT institutlarının qənaətinə görə, investorlar Sİ investisiyalarının iqtisadi təsirini hələ tam qiymətləndirməyiblər. İnflyasiya artımı və pul siyasətinin sərtləşdirilməsi qlobal iqtisadi riskləri artırır. Bu vəziyyət yalnız texnologiya sektorunda deyil, bütün iqtisadi sahələrdə risk yaratmaq potensialına malikdir.

### Liderlər riskləri Davos Forumunda qiymətləndirəcək

Dünya İqtisadi Forumunun prezidenti və baş icraçı direktoru Borge Brende bildirib ki, böyük dövlətlər öz maraq dairələrini təmin etməyə çalışdıqca yeni rəqabət nizamı formalaşır. Onun fikrincə, real mənzərə əməkdaşlığın dünənkindən xeyli fərqli olduğunu göstərir və dəyişən fraqmentasiyalara uyğun olaraq yeni əməkdaşlıq yanaşmaları və dialoq ruhunun vacibliyi daha önə çıxır. Ona görə də, yaxın günlərdə Davos Forumunda qlobal icma illik görüşlərdə bu riskləri və imkanları dərindən təhlil edərək həlli üçün lazım olan imkanları yaratmaq, körpüləri qurmaq barədə düşünməlidir. Davos görüşləri bu baxımdan vacib platforma rolunu oynaya bilər.

***E.CƏFƏRLİ***

# Beynəlxalq ictimaiyyət narahatdır

## İrandakı gərginliyin idarəolunmaz hala gəlməsi region üçün riskli ola bilər

İranda etiraz aksiyaları və iğtişaşlar davam edir. Buna səbəb dolların bahalaşması fonunda milli valyutanın ucuzlaşmasıdır. Bu da əhalinin sosial durumuna ciddi təsir edir. Əvvəlki aylarda artan böhran yeni ildə daha da dərinləşib. Xatırladaq ki, İranda İsraillə 12 günlük savaşdan sonra iqtisadi vəziyyət gərginləşib. Digər səbəb müharibəyə görə nüvə proqramı ilə bağlı İran-ABŞ danışıqlarının dayandırılmasıdır. Belə ki, bundan sonra Tehran Qərbin sanksiyaları ilə daha çox üzləşir. Bütün bunların fonunda ötən il dekabrın 28-də İranda, xüsusən də paytaxt Tehranda sahibkarların etiraz aksiyası başlayıb və güclənən nümayişlər davam edir. Təhlükəsizlik qüvvələri ilə etirazçılar arasında toqquşmalarda ölən və yaralananların sayı artmaqdadır.







**ABŞ hansı variantı seçir?**

İran hakimiyyəti də ölkədə sosial-iqtisadi tənəzzülü etiraf edib və nümayişçilərlə dialoq aparıb. Bir neçə gün öncə Prezident Məsud Pezeşkian etirazçıların nümayəndələri ilə şəxsən görüşüb. Lakin bu görüş etiraz aksiyalarını dayandıra bilməyib. Hazırda gündəmin əsas mövzusu ABŞ-ın İrana hərbi müdaxilə edib-etməyəcəyidir. "The New York Times" qəzeti ABŞ administrasiyasındakı mənbələrə istinadla məlumat yayıb ki, Donald Tramp İranla fikir ayrılıqlarını aradan qaldırmaq üçün diplomatik variantları nəzərdən keçirir. Bununla belə, mənbələrin bildirdiyinə görə, Amerika lideri hələ də İrana zərbə endirilməsi ehtimalından imtina etməyib. ABŞ rəsmilərinin sözlərinə görə, mümkün zərbə Vaşinqtonun vəziyyətdən narazı olduğunu göstərən "mesajın çatdırılması" məqsədi daşıyır və İranda hakimiyyət dəyişikliyinə yönəlməyib.

Ağ Evin mətbuat katibi Kerolin Levitt yanvarın 12-də jurnalistlərə bildirmişdi ki, İran tərəfi ABŞ-ın xüsusi nümayəndəsi Stiven Vitkoffla əlaqə saxlayıb: "Mənim başa düşdüyümə görə, Stiven Vitkoff İranla bağlı diplomatik əlaqələrdə çox mühüm rol oynayacaq".

**Britaniya Tehrandakı səfirliyini bağlayıb**

"NBC" telekanalı isə xəbər verib ki, İsrail və bir neçə ərəb ölkəsi ABŞ-dan İrana hücumları hələlik təxirə salmasını xahiş edib. Məlumata görə, həmin ölkələrin nümayəndələri hesab edirlər ki, İran ABŞ zərbələrinin ölkədə hakimiyyət dəyişikliyinə səbəb olacaq qədər zəifləməyib. Onlar, həmçinin Ağ Evə genişmiqyaslı zərbələri İranda vəziyyət daha da gərginləşənədək təxirə salmağı təklif ediblər. Bütün bunlar yanvarın 13-də Ağ Evdə ABŞ-ın İrandakı vəziyyətlə bağlı Milli Təhlükəsizlik Şurasının iclasında müzakirə olunub.

Donald Tramp milli təhlükəsizlik komandasına bildirib ki, İrana qarşı istənilən mümkün hərbi əməliyyatlar "sürətli və qətiyyətli" olmalıdır. Məlumata görə, Ağ Evin rəhbəri həftələr və ya aylarla davam edə biləcək uzunmüddətli münaqişə istəmir. Mənbələr qeyd edir ki, Pentaqon ABŞ-ın İrandakı vəziyyətə hərbi müdaxiləsi üçün bir neçə variant hazırlayıb. Lakin Donald Trampın müşavirləri ABŞ-ın hücumundan sonra İranda hakimiyyətin sürətlə çökəcəyinə hələ zəmanət verə bilməyiblər. ABŞ administrasiyası İranın mümkün cavabından qorunmaq üçün Vaşinqtonun regionda kifayət qədər resursunun olmamasından ehtiyatlanır. Ona görə də, Prezident İranda daha məhdud hərbi əməliyyatla bağlı qərar qəbul edə bilər.

Bu arada ABŞ hakimiyyəti İranda davam edən iğtişaşlar səbəbindən amerikalıları təcili olaraq bu ölkəni tərk etməyə çağırıb. İrandakı "virtual" ABŞ səfirliyi amerikalıları uzunmüddətli internet kəsintilərinə hazır olmağa, alternativ rabitə planları qurmağa və mümkün olduğu halda İranı quru yolu ilə tərk etməyə, əks təqdirdə isə təhlükəsiz yer tapmağa, həmçinin qida, su, dərman və digər zəruri əşyalardan ehtiyat yaratmağa çağırıb. Sənəddə vurğulanır ki, "ABŞ vətəndaşları İranda dindirilmə və həbs riski altındadırlar".

Böyük Britaniya hökuməti isə regionda gərginliyin artması fonunda İrandakı səfirliyinin müvəqqəti bağlanmasına qərar verib. "The Independent" xəbər verir ki, qərar İran rəhbərliyinin ABŞ Prezidenti Donald Trampın mümkün hərbi zərbələrinə cavab olaraq regiondakı Amerika hədəflərini vuracağı ilə bağlı xəbərdarlıqlarından sonra verilib. Böyük Britaniya, həmçinin Qətərdə yerləşən və regionun ən böyük Amerika hərbi bazası olan Əl-Udeyd aviabazasından bəzi hərbçilərini geri çağırıb.

**Ankaranın vasitəçiliyi tərəflər arasında gərginliyi yatıra bilər**

Təbii ki, mövcud gərginlik, hərbi qarşıdurma region ölkələri üçün də risklidir. Bu səbəbdən regionun güclü dövlətlərindən biri olan Türkiyə hesab edir ki, İranın regionu riskə atacaq hadisələrdən qaçması önəmlidir. Xarici işlər naziri Hakan Fidan qeyd edib ki, regionda keçmişdən qalan çoxsaylı problemlər var: "Bunlardan biri də İranın uzun illər məruz qaldığı sanksiyalardır. Bizim sərhəd qonşumuzla yüz illərə söykənən tarixi əlaqəmiz var. Ona görə də İrandakı hadisələri yaxından izləyirik. Təhlükəsizliyin təmini üçün problemlərin dialoq yolu ilə həllinin tərəfdarıyam. Ona görə də diplomatik səylərimizi davam etdirəcəyik. Ümid edirəm ki, ABŞ və İran aralarındakı məsələni danışıq yolu ilə həll edəcəklər".

Əlbəttə, hazırkı şəraitdə ABŞ və İran üçün ən uyğun vasitəçi Ankara ola bilər. Türkiyənin xarici işlər naziri Hakan Fidanın iranlı həmkarı Abbas Əraqçi ilə davamlı telefon danışığı aparması, eyni zamanda, ABŞ-ın Ankaradakı səfiri və Suriya üzrə xüsusi nümayəndəsi Tom Barrakı qəbul etməsi bunun göstəricisidir. Bütün bunların fonunda ehtimal etmək olar ki, ABŞ-ın İrana qarşı hərbi əməliyyat aparması ən son variantdır. Çünki bu, mövcud şəraitdə tətbiqdən daha çox, çəkindirici taktika kimi daha çox səmərə verə bilər. Bu baxımdan, yaxın zamanlarda Türkiyənin tərəflərin görüşünə ev sahibliyi etməsi də istisna deyil.

***N.BAYRAMLI***

# Moldova ilə Rumıniyanın birləşməsi...

## Sandu dəstəkləyir - Buxarest susur...

Moldova ilə Rumıniya arasındakı ənənəvi birləşmə məsələsi yenidən aktuallaşır. Qeyd edək ki, bu mümkün birləşmə haqqında fikir mübadilələləri son illərdə Cənub-Şərqi Avropanın ən çox müzakirə olunan mövzularından birinə çevrilib. Tarixən eyni köklərdən gələn, dil, mədəniyyət və milli kimlik baxımından bir-birinə çox yaxın olan bu iki dövlətin münasibətləri, həm regionun tarixi gedişatı, həm də geosiyasi reallıqlar nəticəsində fərqli trayektoriyalar üzrə inkişaf edib. Moldova SSRİ-nin dağılmasından sonra müstəqil dövlət kimi formalaşsa da, Rumıniya Avropa İttifaqı və NATO üzvlüyü ilə fərqli inteqrasiya yolunu seçib. Buna baxmayaraq, həm ictimai rəydə, həm də siyasi müstəvidə zaman-zaman "yenidən birləşmə" ideyası gündəmə gəlir və müxtəlif dalğalarla gündəmin ön sıralarına çıxır. Bu məsələ yalnız tarixi yaddaşla bağlı nostalji deyil, həm də iqtisadi, siyasi və təhlükəsizlik aspektlərindən Avropanın gələcəyi üçün strateji əhəmiyyət kəsb edir. Amma bununla bağlı keçirilən sorğuların nəticələri pozitiv deyil - ötən il "iData"nın keçirdiyi sorğuya əsasən, moldovalıların əksəriyyəti Rumıniya ilə birləşməyə qarşıdır.








### Referendum keçirilsə...

Bu dəfə məsələni gündəmə gətirən Moldova Prezidenti Maya Sandu olub - o, "The Rest is Politics" podkastında bildirib ki, referendum keçiriləcəyi təqdirdə Rumıniya ilə birləşməyə səs verəcək. "Əgər referendum keçirilərsə, mən Rumıniya ilə birləşməyə səs verəcəyəm. Moldova kimi kiçik bir ölkənin demokratiya və suveren dövlət kimi yaşaması getdikcə çətinləşir", - deyə Sandu vurğulayıb.

Prezident hesab edir ki, 1980-ci illərdə milli dirçəliş hərəkatını dəstəkləyən çoxsaylı insan nəzərə alınmaqla, həmin vaxt Rumıniya ilə birləşməyə dair referendum keçirilə bilərdi. "1980-ci illərin sonlarında milli dirçəliş hərəkatları var idi və təbii ki, Moldova əvvəllər Rumıniyanın bir hissəsi olduğundan Rumıniya ilə birləşməyə dair müzakirələr aparılırdı. Lakin o vaxt referendum keçirilmədiyi üçün neçə nəfərin səs verəcəyini bilmirdik", - deyə o qeyd edib. Sandu bildirib ki, Moldova kimi bir ölkənin yaşaması, demokratiya, suveren dövlət kimi mövcud olması getdikcə çətinləşir: "Lakin Moldova prezidenti kimi başa düşürəm ki, Rumıniya ilə birləşməyi dəstəkləyən əksəriyyət yoxdur, amma AB-yə qoşulmağı dəstəkləyən əksəriyyət var və biz bu məqsədə çatmaq üçün çalışırıq. Bu, suverenliyimizi qorumağımıza kömək edən daha real bir məqsəddir", - deyə o əlavə edib.

Qeyd edək ki, 2024-cü ilin mart ayında Rumıniyanın o vaxtkı baş naziri Marsel Çolaku Moldovada "yalnız rumınların" yaşadığını elan etmişdi. "Moldovalılar yoxdur, Moldova dili yoxdur, bu rumın dilidir və bunlar rumınlardır", - deyə o bildirmişdi. Bu isə, Moldovada etirazlara səbəb olmuşdu.

Xatırladaq ki, ötən il sentyabrın sonlarında Rumıniyanın ifrat sağçı qrupları Moldova ilə birləşməyə çağırış ediblər. Buxarestdə yerləşən "Avangarde" sosioloji şirkəti tərəfindən aparılan sorğu göstərir ki, rumınların təxminən yarısı Moldova ilə birləşməyi dəstəkləyir.

### Müxalifət etiraz edir...

Müxalifət isə Prezident Sandunun fikirləri ilə razı deyil - müxalif siyasətçi İlan Şor Maya Sandunun Rumıniya ilə mümkün birləşmə ilə bağlı açıqlamalarını Moldovanı "öldürmək" istəyinin sübutu kimi təsvir edib. O, Moldova prezidenti Maya Sandunun ölkənin Rumıniya ilə mümkün birləşməsini dəstəkləyən son açıqlamalarına münasibət bildirərkən bu açıqlamaların dövlət başçısının Moldovanı müstəqil dövlət kimi ləğv etmək niyyətinin etirafı kimi göstərib. Siyasətçi özünün "Telegram" kanalında yazıb: "Qatil nəhayət ki, bir məqsədlə gəldiyini etiraf etdi: Moldovanı öldürmək".

### Tarixi bağlılıq...

Qeyd edək ki, hazırda fərqli müstəqil siyasi subyekt kimi fəaliyyət göstərən Moldova və Rumıniya tarixin bir çox dönəmlərində bir dövlətin daxilində və ya bir dövlət statusunda olublar. XIX əsrin əvvəlində bugünkü Rumıniyanın şimal-şərqini təşkil edən Moldaviya Knyazlığı (Prutun qərbi) ilə bugünkü Moldovanın böyük hissəsi - Bessarabiya (Prutun şərqi) eyni siyasi-mədəni arealda idi, lakin Bessarabiya 1812-ci ildə Rusiyaya verildi. Prutun qərbindəki Moldova 1859-cu ildə Valaxiya ilə birləşib Rumıniyanı formalaşdırdı.

Birinci Dünya müharibəsindən sonra Bessarabiya Parlamenti 27 mart 1918-ci ildə Rumıniya ilə birləşmə qərarı verdi. Beləliklə, bugünkü Moldovanın böyük hissəsi 1918-1940-cı illərdə Rumıniyanın tərkibində oldu. II Dünya Müharibəsi öncəsi Molotov-Ribbentrop xətti fonunda SSRİ Bessarabiyanı özünə ilhaq edərək Moldaviya Sovet Sosialist Respublikasını yaratdı. Müharibədən soqnra da Moldaviya SSR SSRİ tərkibində qaldı.

1991-ci ildə SSRİ dağılanda Moldova da digər müttəfiq respublikalar kimi müstəqilliyini elan etdi. Həmin dövrdə sosialist siyasi ideologiyasından imtina edən Rumıniya isə NATO (2004) və Aİ (2007) yolunu tutdu.

1990-cı ilin mayında Prut üzərində simvolik sərhəd açılışı, baş tutdu. "Güllər Körpüsü" (Podul de Flori) ilə milyonlarla insan bir-birini vizasız ziyarət etdi. O dövrün emosional fonu birləşmə ideyasını gücləndirmişdi. 1990-lar və 2000-lərdə bununla bağlı vətəndaş cəmiyyəti təşəbbüsləri (mitinqlər, imza kampaniyaları) fasilələrlə davam etdi. 2018-ci ilin "Böyük Birləşmə"nin 100 illiyi ərəfəsində Moldova daxilində 100-dən çox bələdiyyə simvolik "birləşmə bəyannamələri" qəbul etdi. Eyni ildə Alba İuliyadan Kişinyova doğru "İğlımlı əsr yürüşü" ("Marşul Centenarului") keçirildi.

Birləşmə siyasi xətti ölkələrdə siyasi platformada da siraət etmişdi - Moldovada 2019-cu ildə bir neçə unionist güc "UNIREA" blokunda birləşdi (partiyalar və QHT-lər koalisiyası), lakin seçkilərdə geniş kütlə dəstəyi toplaya bilmədi

### Kim birləşmə istəyir?

Vurğulandığı kimi, birləşmə ilə bağlı müxtəlif siyasi hərəkatlar və partiyalar yaradılıb. Məsələn, Moldovada ən populyar birləşmə tərəfdarı kimi "Partidul Unitatii Nationale" (PUN) çıxış edir. Onlar açıq unionist xətt tutur, müxtəlif illərdə parlamentdənkənar kampaniyalar, mitinqlər, informasiya aksiyaları təşkil ediblər. Hər iki ölkədə fəaliyyət göstərən "AUR" partiyası da fərqli zamanlarda həm Moldovada, həm də Rumıniyada aktiv küçə siyasəti ilə məşğul olublar. Bu sıraya Liberal Parti (PL) və vətəndaş platformalarını (ODIP/Unirea və s.) da əlavə etmək olar. Bu prosesə ictimai dəstək isə birmənalı deyil - məsələn, 2021-ci ilin yazında keçirilmiş iData sorğusunda təxminən 44 faiz dəstək qeydə alınmışdı. Sonrakı dövrlərdə bu dəstək 30-40 faiz arasında dəyişib. Maraqlıdır ki, ölkələrin əsas böyük siyasi blokları həm "birləşməyə hə", həm də "müstəqilliyə sadiqlik" xəttini müdafiə edirlər.

### "Dnestryanı" problemi

Iki dövlətin birləşməsində siyasi maneələr də az deyil. Məsələn, bölgədə hələ də həllini tapmamış siyasi problemlər mövcuddur. Tanınmamış "Dnestryanı" (Transnistriya) bölgədə rus hərbi kontingenti mövcuddur və buradakı siyasi problem həll edilməyib. Moldovalı siyasi ekspertlər özləri də etiraf edirlər ki, problem tək bu, deyil - muxtar Qaqauziyada da Moskva meylli qüvvələr mövcuddur. Birləşmə baş verərsə, anti-NATO/anti-Aİ ritorikası kəskinləşə bilər. Unutmaq olmaz ki, Rumıniya NATO üzvüdür; birləşmə ssenarisi NATO sərhədinin "Dnestryanı" münaqişə zonasına "toxunması" deməkdir.

***SADİQ***



# Qlobal işsizlik səviyyəsi sabit olaraq qalır

Beynəlxalq Əmək Təşkilatının (BƏT) "Məşğulluq və sosial trendlər - 2026" hesabatına görə, qlobal işsizlik səviyyəsinin bu il təxminən 4,9 faiz səviyyəsində sabit qalacağı proqnozlaşdırılır ki, bu da təxminən 186 milyon insanın işsiz qalması deməkdir. İşsizlik səviyyəsinin ən böyük artım tempi daha çox yoxsul ölkələrdə müşahidə olunur. Bununla yanaşı, daha zəngin iqtisadiyyatlarda əhalinin qocalması müşahidə olunur, burada əməkqabiliyyətli insanların işə girməsi və ya işləməsi üçün daha az imkanı var. Bununla belə, iş yerlərinin artımının ortagəlirli ölkələrdə 0,5 faiz, aşağıgəlirli ölkələrdə isə 3,1 faiz olacağı proqnozlaşdırılır. Lakin işlə təmin olunmaq keyfiyyətli işə və ya layiqli əməkhaqqına sahib olmaq anlamına gəlmir: təxminən 300 milyon işçi gündə 3 dollardan az qazanaraq həddindən artıq yoxsulluq içində yaşayır. Bu il təxminən 2,1 milyard insanın qeyri-rəsmi sektorda çalışacağı, sosial müdafiəyə, iş yerində hüquqlara və əməyin təhlükəsizliyinə məhdud çıxışı olacağı gözlənilir.

Hesabatda qeyd olunur ki, qlobal miqyasda gənclərin məşğulluğu risk altındadır. Aşağıgəlirli ölkələrdə gənclər üçün qlobal iş vəziyyəti "qorxunc" kimi təsvir olunur. Onların dörddəbirindən çoxu (27,9 faiz) nə təhsil, nə məşğulluq, nə də təlim sahəsində yer alır.

Yüksəkgəlirli ölkələrdə də təhsilli gənclər qeyri-müəyyənlikdən sığortalanmayıb: tədqiqat süni intellekt və avtomatlaşdırmanın onların iş tapmasını çətinləşdirə biləcəyi barədə xəbərdarlıq edir və texnologiyanın diqqətlə izlənilməsini tələb edir.

Eyni zamanda, məşğulluq sahəsində gender fərqi də qalmaqdadır. Hesabatda iş yerində qadın bərabərliyi uğrunda mübarizə aparanlar üçün yaxşı xəbərlər azdır; məlumatlar göstərir ki, sosial normalar və stereotiplər hələ də güclüdür. Əvvəlki nailiyyətlər dayanıb, iş yerində gender bərabərliyinə doğru irəliləyiş yavaşlayıb və qadınların bu gün işçi qüvvəsində iştiraketmə ehtimalı kişilərə nisbətən təxminən 24 faiz azdır.

BƏT ticarət qeyri-müəyyənliyi məsələsini də şərh edib. Qeyd olunub ki, 2025-ci ildə qlobal iqtisadiyyat ABŞ-ın rəhbərliyi ilə beynəlxalq ticarət qaydaları və tarif dərəcələrindəki dəyişikliklərlə yadda qalıb.

Ticarət dünya miqyasında təxminən 465 milyon işçini dəstəkləyir, onların yarıdan çoxu Asiya və Sakit okean regionundadır və bu sahədə qeyri-müəyyənlik, xüsusən də Cənub-Şərqi Asiya, Cənubi Asiya və Avropada işçilərin əməkhaqqını azaldır.

Hesabatda vurğulanır ki, qlobal işsizlik ilə bağlı uyğun və əlaqələndirilmiş cavab tələb olunur. BƏT-in baş direktoru Gilbert Hounqbo geridəqalma riski olan daha kasıb iqtisadiyyatlarda layiqli iş və sosial ədaləti inkişaf etdirmək üçün əlaqələndirilmiş fəaliyyətə və daha güclü qurumların yaradılmasına çağırıb. O qeyd edib: "Hökumətlər, işəgötürənlər və işçilər texnologiyadan məsuliyyətlə istifadə etmək, qadınlar və gənclər üçün keyfiyyətli iş imkanlarını genişləndirmək üçün ardıcıl və əlaqələndirilmiş institusional cavablar vasitəsilə birlikdə hərəkət etməsələr, layiqli iş çatışmazlığı davam edəcək və sosial birlik risk altında olacaq".

# Türkiyədə qəzaya uğrayan Liviya təyyarəsinə terror təsirləri yoxdur

Türkiyədə qəzaya uğrayan Liviya təyyarəsinin "qara qutu"sunun tədqiqi prosesinə başlanılıb. "TRT Haber"in məlumatına görə, bu barədə Ankara Prokurorluğu məlumat yayıb. Məlumata əsasən, prokurorluğun təlimatı əsasında mühafizə edilən cihaz uçuş məlumatlarının və pilotların səs yazılarının təhlili üçün Britaniyanın paytaxtı Londona göndərilib, texniki hesabatın təyyarə qəzasının səbəbi ilə bağlı konkret sübutlar təqdim edəcəyi gözlənilir.



Bildirilib ki, qəzada həyatını itirənlərin şəxsiyyətinin müəyyən edilməsi prosesi də tamamlanıb. Hadisədən sonra bir müddət Ankarada sorğu-sual edilən Kipr Respublikasının vətəndaşı da daxil olmaqla ekipajla bağlı aparılan araşdırmalar nəticəsində indiyədək terror və kənar təsir əlamətlərinə rast gəlinməyib.

Qeyd edək ki, 2025-ci il dekabrın 23-də Ankaranın Esenboğa hava limanından havaya qalxan Liviya Baş Qərargah rəisinin təyyarəsi qəzaya uğrayıb. Hadisə nəticəsində ümumilikdə 8 nəfər həlak olub. Ölənlər arasında Liviya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Məhəmməd Əli Əl-Haddad və Ordunun Baş Qərargah rəisi, general-leytenant Fituri Qəribil də var. Liviya hökuməti 3 günlük matəm elan edib.

# Fransa Mərkəzi Bankından çağırış: Ölkə beynəlxalq kreditorlar qarşısında riskli zonaya daxil ola bilər

Fransada iqtisadi durum mürəkkəb olaraq qaldığından hökumət fiskal siyasətdə çətinliklə üzləşib. Bu səbəbdən 2026-cı il dövlət büdcəsi hələ təsdiqlənməyib. Bu vəziyyət fonunda Fransa Mərkəzi Bankının rəhbəri Fransua Villerua de Qalo hökumət və parlamenti ciddi maliyyə riskləri barədə xəbərdar edib. Bildirib ki, əgər bu il büdcə kəsiri 5 faizə endirilməsə, Fransa "qırmızı zona"ya daxil olacaq. O xatırladıb ki, "Banque de France" siyasi baxımdan neytraldır. "Hazırda büdcə kəsiri ÜDM-in 5,4 faizini təşkil edir. 2029-cu ilə qədər bu göstəricinin 3 faizə endirilməsi Avropa öhdəliklərinin yerinə yetirilməsi və dövlət borcunun sabitləşdirilməsi üçün vacibdir. 2026-cı ildə defisitin maksimum 5 faiz səviyyəsində saxlanılması həm zəruri, həm də mümkündür. Lakin hazırda ölkənin təsdiqlənmiş büdcəsi yoxdur. Büdcə olmadığı müddətdə defisitin azaldılması da mümkün deyil".




Mərkəzi Bankın rəhbəri xəbərdarlıq edib ki, defisit 5 faizdən yuxarı qalarsa, Fransa beynəlxalq kreditorlar və maliyyə bazarları baxımından riskli zona hesab olunacaq: "Bu, Avropa İttifaqının sanksiya prosedurlarını yenidən işə salması, reytinq agentliklərinin kredit reytinqini aşağı salması və investorların bazarı tərk etməsi ilə nəticələnə bilər. Yüksək faiz dərəcələri yalnız dövlət maliyyəsinə deyil, şirkətlərin investisiya kreditlərinə və ailələrin ipoteka ödənişlərinə də mənfi təsir göstərəcək. Bu riski gözə almamalıyıq".

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti üzrə hazırlanmışdır**

# Bərabər hüquqlar, bərabər məsuliyyətlər!

## Gender üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planının əhəmiyyəti

*Yeganə BAYRAMOVA*

Müasir dünyada cəmiyyətin inkişafını müəyyən edən əsas amillərdən biri gender münasibətləri, ailə institutu və demoqrafik proseslər arasındakı qarşılıqlı əlaqədir. Bu 3 anlayış təkcə sosial həyatın ayrılmaz hissəsi deyil, həm də dövlət siyasətinin, iqtisadi inkişafın və mədəni transformasiyanın əsas göstəricilərindəndir.

Gender anlayışı artıq yalnız qadın və kişi rollarının bölgüsü kimi qəbul edilmir. Bu gün gender bərabərliyi fərdlərin sosial, iqtisadi və siyasi həyatda bərabər iştirakını təmin edən əsas prinsip kimi ön plana çıxır. Qadınların təhsil səviyyəsinin yüksəlməsi, əmək bazarına aktiv şəkildə qoşulması və qərarvermə proseslərində iştirakı ailə modelinə də təsirsiz ötüşmür. Ənənəvi ailə strukturu tədricən dəyişir, valideynlik məsuliyyəti daha balanslı şəkildə bölüşdürülür.

Ailə isə cəmiyyətin ən kiçik, lakin ən təsirli sosial institutudur. Güclü ailə modeli sosial sabitliyin və mənəvi dəyərlərin qorunmasının əsas təminatçısıdır. Lakin urbanizasiya, miqrasiya, iqtisadi çətinliklər və dəyişən gender rolları ailə münasibətlərində yeni çağırışlar yaradır. Boşanmaların artması və uşaqların sayının azalması bir çox ölkələrdə demoqrafik balansı təhlükə altına alır.

Demoqrafiya bu proseslərin nəticəsini rəqəmlərlə ifadə edən güzgüdür. Doğum səviyyəsinin azalması və əhalinin yaşlanması gələcəkdə əmək bazarında çatışmazlıq, sosial təminat sisteminə yük və iqtisadi durğunluq riskləri yarada bilər. Bu baxımdan ailə siyasəti ilə gender bərabərliyi bir-birinə zidd deyil, əksinə, bir-birini tamamlamalıdır. Qadınların karyera qurmaqla yanaşı ana olmaq imkanlarının dəstəklənməsi, kişilərin ailə həyatında daha aktiv rol alması sağlam demoqrafik inkişaf üçün əsas şərtdir.

Nəticə etibarilə, gender, ailə və demoqrafiya ayrı-ayrı mövzular deyil, cəmiyyətin gələcəyini formalaşdıran vahid sistemdir. Bu sahələrdə balanslı və inklüziv yanaşma həm sosial ədaləti, həm də davamlı inkişafı təmin edə bilər. Cəmiyyətin tərəqqisi isə məhz bu tarazlığın nə dərəcədə düzgün qurulmasından asılıdır.

**Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planı**

Bu yaxınlarda “Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026 - 2028-ci illər üçün Milli Fəaliyyət Planı” təsdiq edilib. Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi:

Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirməli;

Milli Fəaliyyət Planının icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə həyata keçirmək tapşırılıb.

Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

**Gender əsaslı zorakılığa dair sorğu aparılacaq**

Gender (kişi və qadınların) bərabərliyi üzrə 2026 - 2028-ci illər üçün Milli Fəaliyyət Planı”nda əksini tapan digər məsələ ölkəmizdə gender əsaslı zorakılığa dair sorğunun aparılmasıdır.



**Qadınların sosial-iqtisadi ehtiyaclarına dair tədqiqat aparılacaq**

Eyni zamanda yeni Milli Fəaliyyət Planına əsasən, azad edilmiş ərazilərə köçürüləcək qadınların sosial-iqtisadi ehtiyaclarına dair keyfiyyət və kəmiyyət əsaslı tədqiqat aparılacaq.

Fəaliyyət Planına əsasən, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə 2026 - 2028-ci illər işğaldan azad edilmiş ərazilərə köçürüləcək qadınların rəqəmsal bilik və bacarıqlarının artırılmasını təmin etməlidir.

**Gender bərabərliyi ilə bağlı seçmə fənlər...**

Bundan başqa, Milli Fəaliyyət Planında qeyd olunub ki, ali təhsilin bakalavriat və magistratura səviyyələrində müvafiq ixtisasların təhsil proqramlarına gender bərabərliyinin tədrisi ilə bağlı seçmə fənlər və ya mövzular daxil edilə bilər.

Fəaliyyət planına görə, əsas icraçı orqan Elm və Təhsil Nazirliyi müəyyənləşib.

İcraçı orqana təhsil proqramlarına gender bərabərliyinin tədrisi ilə bağlı daxil edilmiş seçmə fənlərə aid tədris proqramlarının və dərsliklərin hazırlanması, təhsil proqramlarına gender bərabərliyinin tədrisi ilə bağlı seçmə fənlər üzrə aparılan tədrisin müntəzəm olaraq monitorinqi və qiymətləndirməsi tapşırılıb.

**Həssas qruplardan olan qadınlar üçün...**

Milli Fəaliyyət Planında qeyd olunub ki, həssas qruplardan olan qadınlar üçün iqlim dəyişmələri nəticəsində yaranan risklərin aradan qaldırılması istiqamətində tədbirlər görüləcək.

Həmin qadınlar üçün iqlim dəyişmələri nəticəsində yaranan riskləri nəzərdə tutan iqlim dəyişmələri üzrə adaptasiya planları və proqramları hazırlanacaq.

Üç ili əhatə edəcək işin icraçı qurumu Ekologiya və Təbii Sərvətlər Nazirliyi müəyyən edilib.

**Şəffaflığın artması üçün mühüm sənəd**

Qeyd edək ki, yeni Milli Fəaliyyət Planı təkcə normativ çərçivə deyil, həm də cəmiyyətin bütün sahələrində bərabər imkanların təmininə yönəlmiş strateji yol xəritəsidir.

Planın əhəmiyyətini artıran əsas məqam onun sistemli və ölçülə bilən məqsədlər üzərində qurulmasıdır. Burada gender əsaslı ayrı-seçkiliyin qarşısının alınması, qadınların iqtisadi fəallığının artırılması, rəhbər vəzifələrdə təmsilçiliyinin gücləndirilməsi, kişi və qadınlar üçün bərabər əməkhaqqı imkanlarının təşviqi kimi prioritetlər ön plana çəkilir. Eyni zamanda, kişilərin də ailə və sosial məsuliyyətlərdə daha fəal iştirakı təşviq olunur ki, bu da gender bərabərliyinin qarşılıqlı və balanslı modelini formalaşdırır.

Milli Fəaliyyət Planı cəmiyyətin dayanıqlı inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edir. Araşdırmalar göstərir ki, gender bərabərliyinin yüksək olduğu ölkələrdə iqtisadi artım daha sabit, sosial institutlar isə daha möhkəm olur. Qadınların təhsil və məşğulluq imkanlarının genişlənməsi insan kapitalının keyfiyyətini yüksəldir, innovasiya potensialını artırır və yoxsulluq risklərini azaldır. Bu baxımdan, plan iqtisadi inkişafla sosial ədalət arasında sağlam tarazlıq yaradır.

Sənədin mühüm cəhətlərindən biri də institusional məsuliyyətin və monitorinq mexanizmlərinin nəzərdə tutulmasıdır. Müxtəlif dövlət qurumları, yerli icra strukturları və vətəndaş cəmiyyəti institutları üçün konkret vəzifələrin müəyyənləşdirilməsi planın icrasını formallıqdan çıxararaq real nəticələrə yönəldir. Bu, həm də ictimai nəzarətin güclənməsinə, şəffaflığın artmasına şərait yaradır.

# Londondakı Azərbaycan məktəbində ana dili tədris edilir

Xaricdə yaşayan azərbaycanlı uşaqlar üçün ana dilinin və milli kimliyin qorunub saxlanılması xüsusi əhəmiyyət daşıyır. Londonda fəaliyyət göstərən Britaniya Avropa Azərbaycan Məktəbi (BEAS) bu istiqamətdə mühüm missiyanı yerinə yetirərək Azərbaycan dilinin, tarixinin və mədəniyyətinin gənc nəsillərə aşılanmasına töhfə verir.



Məktəbdə Azərbaycan dili və incəsənət fənnini tədris edən müəllim Nəzrin Qədimova AZƏRTAC-a müsahibəsində bildirib ki, əsas məqsəd uşaqlara ana dilini sevdirmək və onların Azərbaycan dilində sərbəst oxuyub-yazmalarına nail olmaqdır. “Bu gün sevinclə deyə bilərəm ki, uşaqlarımız Azərbaycan dilində sərbəst yazır və oxuyurlar. Onlara bu dərsi tədris etmək mənim üçün böyük fəxrdir. Uşaqların gündən-günə inkişaf etdiyini, dilimizə yiyələndiyini görmək qürurvericidir. Hesab edirəm ki, uşaqlarımız öz ana dilini hər zaman öyrənməli və yadda saxlamalıdır. Çünki bu, bizim milli ruhumuzdur və milli ruhu daim yaşatmalıyıq”,- deyə müəllim qeyd edib. O bildirib ki, məktəbdə ana dili ilə yanaşı, şahmat, Azərbaycan tarixi, mədəniyyəti, milli rəqslər və kulinariya dərsləri də tədris olunur.

Məktəbdə Azərbaycan rəqsləri və incəsənətindən dərs deyən Aytac Ağamalı isə vurğulayıb ki, xüsusilə xaricdə doğulan uşaqlar üçün Azərbaycanın milli dəyərlərini unutmamaq çox vacibdir.

Məktəbin həmtəsisçisi Səbinə Quliyeva bildirib ki, Britaniya Avropa Azərbaycan Məktəbində hazırda 2-12 yaş arası uşaqlar təhsil alır və dərslər həftənin bazar günləri keçirilir. “Səviyyələrə uyğun şəkildə təşkil olunan dərslər vasitəsilə məqsədimiz uşaqlara erkən yaşlardan Azərbaycan dilini, mədəniyyətini və milli dəyərlərini aşılamaqdır. Valideynlərin böyük marağı və dəstəyi bizi daha da ruhlandırır. İnanırıq ki, xaricdə böyüyən uşaqlarımızın Azərbaycanla bağlarını qoruyub saxlamaları üçün bu cür təhsil ocaqları çox vacibdir”, - deyə Səbinə Quliyeva vurğulayıb.

*İdman*

## Azərbaycan və Danimarka arasında yoldaşlıq oyunu keçiriləcək

AFFA

DANSK BOLDSPIL-UNION DBU 1889

Futzal üzrə Azərbaycan millisinin Danimarka yığması ilə keçirəcəyi yoldaşlıq oyunlarını idarə edəcək hakimlər açıqlanıb. AZƏRTAC xəbər verir ki, yanvarın 22-də təşkil olunacaq ilk görüşdə ədaləti Əli Cəbrayılov, İmran Məhərrəmov və Ramil Namazov qoruyacaqlar. Komandalar arasında yanvarın 24-də reallaşacaq ikinci matçı isə Knyaz Əmiraslanov, Rza Məmmədov və Anar Fərəcov idarə edəcəklər. Bakı İdman Sarayında baş tutacaq oyunlar müvafiq olaraq, saat 19:00 və 16:00-da başlayacaq.

## “Yaşayan əfsanə” Bakıya gəlir



Məşhur döyüş ustalarından biri - əfsanəvi İp Manın tələbəsi, “Yaşayan Əfsanə” tituluna sahib Böyük Usta Samuel Kvoku yenidən Bakıya gələcək. Bu barədə AZƏRTAC-a Azərbaycan Vinq Çun Federasiyasının və Çin Döyüş Növləri Assosiasiyasının prezidenti Arif Sayadov məlumat verib. O, Samuel Kvokunun paytaxtda təxminən 5-6 ölkənin iştirakı ilə təşkil olunacaq beynəlxalq seminara qatılacağını bildirib. Seminarın may-iyun aylarında keçirilməsi planlaşdırılır.

## “Real Madrid” mübarizəni dayandırdı

“Real Madrid” İspaniya Kral Kubokunda mübarizəni dayandırıb. Madrid klubu 1/8 finalda ikinci liqa təmsilçisi “Albasete” ilə qarşılaşıb. Gərgin və maraqlı keçən görüş “kral klubu”nun 2:3 hesablı məğlubiyyəti ilə başa çatıb. Bununla da İspaniya nəhəngi kubokla vidalaşıb.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4526
Sifariş: 73
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova